**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN AKADEMİYASI**
**GÖMRÜK İŞİ VƏ İDARƏETMƏ KAFEDRASI**

# «Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük xidməti tərəfindən reyestrinin aparılmasının və qorunmasının nəzəri aspektləri»

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Magistrant: Əhmədli Aytən Ənvər qızı**
**Elmi rəhbər: i.e.n, dosent Yadulla Mehriban Yadulla qızı**

**BAKI – 2024**

**DGKA-nın Elmi işlər üzrə**
**Rəis müavini**
**Cəmilə Namazova**
**Təsdiq edirəm**

**________________**

**“____”_____” 2024-cü il**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN AKADEMİYASI**
**GÖMRÜK İŞİ VƏ İDARƏETMƏ KAFEDRASI**

**“Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük xidməti tərəfindən reyestrinin aparılmasının və qorunmasının nəzəri aspektləri”**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060401 – Dünya iqtisadiyyatı

**İxtisaslaşma:** Gömrük işi

**Qrup:** M22

Magistrant
Əhmədli Aytən Ənvər
__________imza

Proqram rəhbəri
i.ü.f.d. Əlirzayev Elvin Vahid
__________imza

Kafedra müdiri
i.ü.f.d. Əlirzayev Elvin Vahid
__________imza

Elmi rəhbər
i.e.n, dosent Yadulla Mehriban Yadulla
__________imza

**BAKI – 2024**

## XÜLASƏ

Sözügedən malların gömrük xidməti tərəfindən reyestri aparılır və onun aparılması aktualdır, çünki o, ticarət əməliyyatlarının həyata keçirilməsi zamanı kontrafakt və ya pirat malların keçirilməsinin qarşısının alınması vasitəsi ilə idxal-ixrac prosesində şəffaflığın artırılmasına, eləcə də bu prosesin asanlaşdırılmasına, hüquqpozmaların qarşısının alınmasına və gömrük sistemlərinin səmərəli fəaliyyətinə birbaşa təsir göstərir.

Dissertasiya işinin məqsədi tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların müəyyən edilməsi eyni zamanda gömrük xidməti tərəfindən reyestrinin hansı formada aparılmasının müəyyən edilməsi və həmin malların necə qorunması ilə bağlı nəzəri biliklərin araşdırılmasıdır.

Tədqiqat işində bir sıra metodlardan istifadə edilmişdir, hansı ki,müqayisəli təhlil və qruplaşdırma, eləcə də statistik təhlil və sintez, bunlarla yanaşı ümumiləşdirmə, sistemli yanaşma metodları tətbiq edilmişdir.

Mövzunun tədqiq olunması və işlənib hazırlanmasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Müəllif Hüquqları üzrə Agentlik, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, AR Kitabxanası, Azərbaycanda mövcud olan milli kitabxanadan və həmçinin internetdə olan başqa məlumat mənbələrindən istifadə olunub.

Bu işi gömrük sisteminin iqtisadiyyatdakı rolunun hərtərəfli tədqiqini, müxtəlif ölkələrdən müasir yanaşmaların tətbiqini, gömrük gəlirlərinin fiskal təsirinin qiymətləndirilməsini və bu sahədə konkret problemlərin tədqiqi və həllini birləşdirərək elmi yenilik nümayiş etdirir.

Dissertasiya işinin elmi yeniliyi Azərbaycanda əqli mülkiyyət hüququ obyektlərinin idxal və ixracının təşviqi istiqamətində kompleks tədbirlərin araşdırılmasından, əqli mülkiyyət hüququ obyektlərinin inkişafını zəruri edən amillər və bu sahədə mövcud problemlərin həlli yollarının açıqlanmasından, əlverişli mühitin formalaşdırılmasında bu sahə üzrə prioritetlərin müəyyənləşdirilməsindən, əqli mülkiyyət hüququ obyektləri olan malların idxal-ixrac əməliyyatlarının inkişafının dövlət tərəfindən tənzimləmə mexanizminin xüsusiyyətləri həmçinin onun stimullaşdırılmasına dair təkliflərin irəli sürülməsindən ibarətdir.



***Açar sözlər : gömrük xidməti, gömrük tənzimlənməsi, ticarət əməliyyatları, pirat və kontrafakt mallar, gömrük məqsədləri, ticarətin asanlaşdırılması, gömrük gəlirləri***

## SUMMARY

It is important to keep a register of goods containing objects of intellectual property rights by the customs service, because it helps to increase transparency in the import-export process by preventing the transfer of counterfeit or pirated goods during trade operations, as well as to facilitate this process, prevent violations and customs has a direct effect on the efficient operation of the systems.

The purpose of the dissertation is to determine the goods that contain objects of intellectual property rights, and at the same time, to determine the form of registration by the customs service and to examine theoretical knowledge about how to protect those goods.

Comparative and systematic analysis, grouping, statistical analysis, synthesis, generalization and systematic approach methods were used in the dissertation work.

The Intellectual Property Agency of the Republic of Azerbaijan, the Copyright Agency, the State Statistics Committee, the State Customs Committee, the Presidential Library of the Republic of Azerbaijan, the National Library of Azerbaijan and other information sources on the Internet were used in the research and development of the topic.

The dissertation demonstrates scientific innovation by combining a comprehensive study of the role of the customs system in the economy, the application of modern approaches from different countries, the assessment of the fiscal impact of customs revenues, and the study and solution of specific problems in this field.

The scientific novelty of the dissertation is from the investigation of complex measures to promote the import and export of intellectual property rights objects in Azerbaijan, the disclosure of the factors that necessitate the development of intellectual property rights objects and the ways of solving the existing problems in this field, the determination of priorities in this field in the formation of a favorable environment, the promotion of goods with intellectual property rights objects the features of the mechanism of state regulation of the development of import-export operations also include putting forward proposals for its stimulation.



***Keywords: customs service, customs regulation, trade operations, pirated and counterfeit goods, customs purposes, trade facilitation, customs revenues***

## MÜNDƏRİCAT

**Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük xidməti tərəfindən reyestrinin aparılmasının və qorunmasının nəzəri aspektləri**

**GİRİŞ.......................................................................................................3**

**I FƏSİL: Əqli mülkiyyət: hüquqi təbiəti və metodoloji əsasları**

1.1 Beynəlxalq müqavilələr və sazişlər əqli mülkiyyət hüquqlarının metodoloji əsası kimi ........................................................................................ 11

1.2 Əqli mülkiyyət obyektlərinin gömrük xidməti tərəfindən reyestrinin aparılmasının və qorunmasının hüquqi mexanizmi ..................................... 24

**II FƏSİL: Əqli mülkiyyətin iqtisadi fəaliyyət subyektlərinə təsiri və onların müdafiə üsulları**

**2.1 Əqli mülkiyyətin iqtisadi fəaliyyət subyektlərinə təsiri...................... 36**

2.2 İnternet şəbəkəsində müəlliflik hüquqlarının pozulması və onların müdafiəsi üzrə təşkilati tədbirlər.................................................................. 46

**III FƏSİL: Azərbaycan Respublikasında əqli mülkiyyət institutunun inkişafı xüsusiyyətləri və gələcək perspektivləri**

**3.1 Azərbaycan Respublikasında müəlliflik hüquqlarının aktual problemləri.........................................................................................
61**

3.2 Azərbaycanda əqli mülkiyyətin hüquqi statusu və gələcək perspektivlər ..........................................................................................................72

**Nəticələr və təkliflər** ...................................................................................... 65

**İstifadə edilmiş ədəbiyyat siyahısı** ............................................................ 68

## İXTİSARLAR

| | |
|---|---|
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **QİI** | Qlobal İnnovasiya İndeksi |
| **ÜƏMT** | Ümumdünya Əqli Mülkiyyət təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **KOS** | Kiçik və orta sahibkarlıq |
| **TRİPS** | Əqli mülkiyyət hüquqlarının ticari məsələlərinə dair saziş |
| **GATT** | Tarif və Ticarət üzrə Baş saziş |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **ÜGT** | Ümumdünya Gömrük Təşkilatı |
| **NK** | Nazirlər Kabineti |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **ƏMA** | Əqli Mülkiyyət Agentliyi |
| **MHA** | Müəllif Hüququ Agentliyi |
| **AMEA** | Azərbaycan Milli Elmlər Akademiyası |
| **UNESCO** | Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslamış qurumu |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyaları |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ABŞ** | Amerika Birləşmiş ştatı |
| **ƏM** | Əqli Mülkiyyət |
| **İXM** | İnzibati Xətalar Məcəlləsi |
| **CPM** | Cinayət Prosessual Məcəlləsi |
| **ƏMH** | Əqli Mülkiyyət Hüququ |
| **XİF** | Xarici İqtisadi Fəaliyyət |
| **İƏT** | İqtisadi Əməkdaşlıq Təşkilat |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Hər bir ölkənin iqtisadi inkişafında vacib rol oynayan əməliyyatlardan biri də idxal-ixrac əməliyyatıdır. Ölkə davamlı iqtisadi inkişafa nail olmaq üçün ilkin olaraq idxal-ixrac əməliyyatlarının xüsusilə də ixrac əməliyyatlarının genişlənməsində olduqca maraqlıdır.
Dünya miqyasında bu əməliyyatların aparılması ölkənin fiskal siyasətinin əsasını təşkil edir. Bu əməliyyatların həyata keçirilməsi ölkənin iqtisadi inkişafı baxımdan səmərəli olması ilə yanaşı eyni zamanda bu proses zamanı qaçaqmalçılıq riskləri onların fəaliyyətini daha da çətinləşdirir. Belə ki, qaçaqmalçılıqla mübarizə üzrə də ölkədə müəyyən proqramlar hazırlanmış və bununla da maksimum səviyyədə qarşısı alınmağa başlanılmışdır. Ölkənin idxal-ixrac əməliyyatlarının obyekti ümumi olaraq mallardır. Mal dedikdə daşınar əmlak , valyuta sərvətləri, nəqliyyat vasitələri və digərləri nəzərdə tutulur. Bir sıra mallar var ki, bu malların idxalı və ya ixracı zamanı icazə tələb edilir. Bəzi mallar Dövlət Gömrük Komitəsinə müraciət edilmək yolu ilə reyestrə daxil edilir və həmin malların şəxsin icazəsi olmadan gətirilməsi və ya aparılması halları olduqda gömrük orqanları tərəfindən ərizəçiyə məlumat verməklə bunun qarşısı dərhal alınır. Bu günün aktual problemlərindən biri olan əqli mülkiyyət obyektləri üzrə əməliyyatlar üzrə bir sıra normativ hüquqi aktlar da hazırlanmışdır. Əqli mülkiyyət hüququ obyektlərinin qorunması istiqamətində atılan əsas addımlardan biri bu sahə üzrə qurumun təsis edilməsidir. 2018-ci il tarixindən bu problemlərlə mübarizə və statistik məlumatların hazırlanması üçün Əqli Mülkiyyət Agentliyi təsis edilmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Bu sahənin öyrənilməsi istiqamətində Əqli Mülkiyyət Agentliyi tərəfindən müəyyən tədbirlər həyata keçirilir. Ümumiyyətlə əqli mülkiyyət obyektlərinin öyrənilməsi 3 sahə üzrə həyata keçirilir. Müəllif hüquqları üzrə, patent və qeyri əmlak üzrə öyrənilmə həyata keçirilir. Əqli mülkiyyət ona daxil edilmiş yaradıcı ideyalar baxımından dəyəri olan informasiyadan ibarətdir. Elə bu informasiya da kommersiya dəyərinə malikdir. "Əqli mülkiyyət" anlayışına daxil olan obyektlərin (kəşf, ixtira, əsərlər və s.)öz sahibləri vardır və əqli mülkiyyət hüquqları onlara məxsusdur. Deyilənlərdən əqli mülkiyyətin ikili təbiətə malik

olduğu aşkara çıxır. Bir tərəfdən yaradıcılıq nəticəsinin yaradıcısının həmin nəticəyə müstəsna mülkiyyət hüququ vardır, yəni onu istifadə etmək hüququ, digər tərəfdən, bilavasitə müəlliflik və digər hüquqlar. Əgər istifadə hüquqları kateqoriyası mülkiyyət hüququ ilə oxşadırsa, bir sözlə, müəllifin sərbəst qaydada istifadə etdiyi əmlak hüquqlarıdırsa, onda müəlliflikla bağlı hüquqlar kateqoriyası öz təbiəti etibarı ilə ayrılmaz olan şəxsi, qeyri əmlak hüquqlarıdır. Qeyd etmək lazımdır ki, əmlak hüquqları müəllifin ayrılmaz olan şəxsi hüquqlarından fərqli olaraq, müəllifin razılığı əsasında digər tərəfə verilə bilər. Əqli mülkiyyət hüququ dedikdə insanların əqli fəaliyyətinə əsaslanan nəticələrdən istifadə olunması ilə əlaqədar meydana çıxan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu nəzərdə tutulur. İnsanların əqli fəaliyyəti ilə bağlı nəticələrin hüquqi mühafizəsi anlayışına nisbətən əqli mülkiyyət anlayışı olduqca yeni termindir. Keçən əsrin 90-cı illərindən etibarən əqli mülkiyyət termini Azərbaycan hüquq sistemində geniş istifadə edilməyə başlamışdır.

1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsində əqli mülkiyyət termini altında insan və vətəndaşlar üçün xüsusi hüquq nəzərdə tutulmuşdur və bununla yanaşı onun elementləri də sadalanmış həmçinin onların hüquq mühafizəsinə təminat verilmişdir.

Müəlliflik hüququ, ixtiraçılıq o cümlədən də əqli mülkiyyət hüququnun digər növləri qanun ilə qorunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ondan ibarətdir ki, əqli mülkiyyət hüquqlarının obyekti olan mallar üzrə hüquqların qorunması üzrə aparılan müvafiq fəaliyyətləri meydana çıxarmaq və eyni zamanda hazırki dövrə qədər bu sahədə aparılan yeniliklər həmçinin də yeniliklərə uyğun olaraq müqayisəli təhlil aparamaq.

Habelə, Azərbaycan Respublikası ilə yanaşı beynəlxalq səviyyədə yəni digər ölkələrdə mövcud olan vəziyyəti öyrənərək hansı təcrübələrin ölkədə təbiq edilәsi ilə əlaqədar məlumatlar əldə etməkdən ibarətdir. Vəzifələrin icrası zamanı dörd amilin nəzərə alınması zəruridir, bu amillər aşağıdakılardır:

- ali təhsil və elm sistemində radikal transformasiya nəticəsində(təhsil, tədqiqatlar və biliklərin kommersiyalaşması)universitetlərin yaranması, burada texnologiyaların kommersiyalaşması və transferinin ön plana çevrilməsi;
- Kiçik orta sahibkarlığın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, bu özündə əqli mülkiyyət siyasətinin dəstəklənməsi, texnoloji innovasiyaların stimullaşdırılmasını ehtiva edir;
- əqli mülkiyyətin yeni fəaliyyət konteksti ilə bağlı onun dəyişmiş rolunun nəzərə alınması, sərvətlərin yaranma mərkəzinin maddi aktivlərdən qeyri-maddi aktivlərə, eləcə də intellektual kapitala yönəlməsi və investisiya axınlarının əqli mülkiyyətə istiqamətlənməsi;
- rəqəmsal imperativi nəzərə almaqla əqli mülkiyyət hüquqlarının şəbəkələrdə idarə edilməsinin effektiv mexanizmlərinin yaradılması.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri əsasını Azərbaycanda əqli mülkiyyət hüququ obyekti olan məhsulların ixracının və idxalının tənzimlənməsi və bununla bağlı əsaslı islahatların aparılmasına dair elmi əsərləri, eyni zamanda əqli mülkiyyət hüququ obyektlərinin inkişaf etdirilməsində problem və bu problemlərin həlli yolları haqqında olan kitabları, monoqrafiyaları, həmçinin də Azərbaycan Respublikasının hüquqi normativ bazası, dövlət proqramları, mövzuya uyğun olan avtoreferatlar, elmi məqalələr və dissertantın topladığı digər məlumatlar təşkil edir. Tədqiqatın metodoloji əsasını isə iqtisadi təhlil, analiz, statistik, qrafik və müqayisəli təhlil metodları təşkil edir.

**Tədqiqatın informasiya mənbələri.** Mövzunun tədqiq edilməsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Statistika Əqli Mülkiyyət Agentliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet səhifələri, eləcə də mövzuya dair bir çox məsələlərin araşdırılması üzrə internet şəbəkəsində uyğun informasiya mənbələrindən geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Azərbaycanda əqli mülkiyyət hüququ obyektlərinin idxal və ixracının təşviqi istiqamətində kompleks tədbirlər araşdırılmışdır;
- Əqli mülkiyyət hüququ obyektlərinin inkişafını zəruri edən amillər və bu sahədə mövcud problemlərin həlli yolları açıqlanmışdır;
- Əlverişli mühitinin formalaşdırılmasında bu sahə üzrə prioritetləri müəyyənləşdirilmişdir;
- Əqli mülkiyyət hüququ obyektləri olan malların idxal-ixrac əməliyyatlarının inkişafının dövlət tərəfindən tənzimləmə mexanizminin xüsusiyyətləri həmçinin onun stimullaşdırılmasına dair təkliflər irəli sürülmüşdür.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Dissertasiyanın materialları və fərdi nəticələrindən yurisdiksiyasına bilavasitə müxtəlif aspektləri ilə bağlı məsələlər daxil olan AR Nazirlik və idarələrinin, ilk növbədə, Azərbaycan Dövlət Gömrük komitəsinin və İqtisadi İnkişaf Nazirliyi, o cümlədən maraqlı qeyri-hökumət təşkilatlarının işində istifadə oluna bilər. Eyni zamanda universitetlərdə tədris prosesində istifadə oluna bilər.

**Əqli mülkiyyət: hüquqi təbiəti və metodoloji əsasları**

### 1.1 Beynəlxalq müqavilələr və sazişlər əqli mülkiyyət hüquqlarının metodoloji əsası kimi

İnsanların əqli fəaliyyətinin nəticələri hesabına formalaşan və onların istifadə olunması ilə əlaqədar yaranan münasibətləri tənzimləyən bütün hüquq normalarının toplusu əqli mülkiyyət hüququ anlayışını meydana gətirir. Ümumiyyətlə əqli mülkiyyət anlayışı insanların əqli fəaliyyətinin mühafizə olunmasına nisbətən yeni anlayış hesab olunur. Azərbaycan Respublikasında isə bu anlayış ilk dəfə olaraq keçən əsrin 90-cı illərindən istifadə edilməyə başlanmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının otuzuncu maddəsində bu anlayış nəzdində insan və vətəndaşlara görə xüsusi hüquq nəzərdə tutulmasıyla yanaşı həmçinin onun elementləri sadalanmış eyni zamanda onların hüquqi mühafizəsi ilə bağlı təminat da verilmişdir. Müəlliflik hüququ və ya ixtiraçılıq hüququ həmçinin də əqli mülkiyyət hüququnun digər növləri məhz qanunla qorunur.[9, s. 41-50]

Əqli mülkiyyət anlayışının ölkəmizin hüquq sistemində müvafiq vəsiqə əldə etməsində beynəlxalq hüquq normaları böyük rola malikdir.

Stokholmda 14 iyul 1967-ci ildə, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının əsasını qoyan Konvensiya imzalanmışdır. Həmin Konvensiyanın ikinci maddəsində isə qeyd olunur ki, əqli mülkiyyət termini dedikdə əsas bunlar nəzərdə tutulur:

1. ədəbi və bədii elmi əsərlərə;
2. artistlərin, səsyazma, radio və televiziya proqramlarının icra fəaliyyətinə;
3. insan fəaliyyəti ilə bağlı olan bütün sferelardakı ixtiralara;
4. elmi kəşflərə, sənaye nümunələrinə;
5. əmtəə nişanına, xidmət nişanına, firma adlarına, kommersiya işarələrinə aid olan hüquqlar,
6. haqsız rəqabətdən hüquqlar, bununla belə istehsalat, elm, ədəbi və bədii sferalarda intellektual fəaliyyətlə bağlı olan digər hüquqlar.[10, s. 60-85]

Dünya Ticarət Təşkilatının yaradıldıqdan sonra artıq əqli mülkiyyətin müdafiəsi üzrə də müəyyən addımlar atılmağa başlanmışdır. Bu sahədə böyük əhəmiyyətə malik olan TRİPS sazişi imzalanmışdır. Bu saziş əsasında əqli mülkiyyətin müdafiəsi məsələsi daha da aydınlaşdırılmışdır. Bu GATT-ın 1994-cü ildə keçirilən Uruqvay Raundunda müzakirə olunmuşdur.[8, s. 20-30]

TRİPS sazişi 1 yanvar 1995-ci ildən etibarən qüvvəyə minmişdir. Bu saziş həmin vaxtdan bu günə qədər əqli mülkiyyət sahəsində qəbul olunan çox tərəfli sazişdir. TRİPS sazişinin özündə ehtiva etdiyi əqli mülkiyyət sahələri isə aşağıdakılardır:

1. Müəlliflik o cümlədən əlaqəli hüquqlar
2. Sənaye nümunələri
3. İnteqral mikrosxem topologiyaları
4. Patentlər
5. Əmtəə nişanları
6. Gizli məlumatların qorunması
7. Müqavilə lisenziyaları ilə ədalətsiz rəqabət təcrübəsinə nəzarətin təmin edilməsi

TRİPS Sazişi aşağıda qeyd olunan 5 əsas sahəni özündə birləşdirir:

1. çoxtərəfli ticarət sistemində mövcud olan ümumi müddəalar eyni zamanda əsas prinsiplər beynəlxalq əqli mülkiyyətə hansı formada tətbiq olunur
2. üzv olan ölkələr tərəfindən təmin olunmalı əqli mülkiyyət hüquqlarına görə minimum səviyyədə müdafiə standartları nələrdən ibarətdir
3. üzv olan dövlətlər özlərinəməxsus ərazilərdə əqli mülkiyyət hüquqlarının tətbiq olunması məqsədilə hansı prosedurları təmin etməlidirlər
4. Ümümdünya Ticarət Təşkilatında mövcud olan üzvlər arasında əqli mülkiyyətlə bağlı mübahisələr olduqca bunu necə həll etmək olar
5. TRIPS sazişinin müddəalarının tətbiq olunması məqsədilə xüsusi keçid tədbirləri.

Tariflər və Ticarət üzrə Baş Saziş həmçinin Xidmətlər Ticarəti üzrə Baş Sazişdə də olduğu kimi, bu sazişin də əsasını prinsiplər təşkil edir.

TRIPS Sazişinin əsas məqsədi ondan ibarətdir ki, əqli mülkiyyətin müdafiəsi ilk öncə texniki innovasiyalara o cümlədən də texnologiyanın ötürülməsinə öz töhfəsini verməlidir.[9, s. 9-13]

TRIPS sazişində qeyd olunur ki, istehsalçılarla yanaşı istifadəçilər də faydalanmalı, eyni zamanda iqtisadi və sosial rifah halı da yüksəldilməlidir.

TRIPS sazişinin ikinci bölməsində ayrı-ayrı növdə olan əqli mülkiyyət hüquqlarına həmçinin onların qorunmasına baxılır. Burada əsas məqsəd ÜTT-nin bütün üzvlərində minimum səviyyədə müdafiə standartlarının olmasının təmin edilməsidir. Burada başlanğıc nöqtə dedikdə, ÜTT yaratmazdan öncə mövcud olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının vacib beynəlxalq müqavilələrinin öhdəlikləridir:

1. Sənaye Mülkiyyətinin Mühafizə olunması ilə bağlı Paris Konvensiyası (patentlər, sənaye nümunələri və s)
2. Ədəbi həmçinin İncəsənət Əsərlərinin Mühafizə olunması məqsədi ilə Bern Konvensiyası (müəllif hüququ).[7, s. 11-17]

Müasir dövrdə maddi nemətlərin ixracı ilə müqayisədə həmçinin insanların əqli fəaliyyəti hesabına yaradılan nemətlər yəni mənəvi nemətlər də olduqca inkişaf etməkdədir. Bu səbəbdən əqli mülkiyyət üzrə hüququn beynəlxalq hüquq sahəsini mühafizəsi əhəmiyyətli rola malikdir.

Mülki hüquqların bir sıra özünəməxsus növləri vardır. Lakin bu hüquqlardan fərqli olaraq əqli mülkiyyət hüququnun da bir çox özünə xas olan xüsusiyyətləri mövcuddur. Onun bu xüsusiyyətlərə sahib olması onun beynəlxalq səviyyədə hüquqi mühafizəsini daha da aktual hala gətirir.

1. İlk olaraq onu qeyd etmək lazımdır ki, əqli mülkiyyət hüququ özü ərazi xarakteri daşıyır. Hər hansı bir dövlətin ərazisində əsası qoyulan əqli mülkiyyət hüququnun tanınması həmçinin də qorunması, əgər bu ölkənin iştirakçısı olduğu beynəlxalq hüquqi mühafizə sistemi mövcud deyilsə,

həmin ölkənin hüdudları ilə məhdudlaşır. Digər formada desək, əqli mülkiyyət hüququ ilə əlaqədar məsələlər əmlak hüquqları ilə müqayisədə eksterritorial xarakter daşımır. Hər hansısa bir dövlətin qanunları üzrə yaranan subyektiv əqli mülkiyyət hüququnun başqa bir ölkənin ərazisində tanınması üçün bu ölkələr arasında həmin əqli mülkiyyət hüququnun qarşılıqlı olaraq tanınması zəminində razılaşma mövcud olmalıdır.

2. Əcnəbilər üçün əqli mülkiyyətlə bağlı hər hansı bir hüququn tanınması ölkənin yerli qanunlarına müvafiq olaraq müəyyən olunur. Belə olan vəziyyətdə digər dövlətin şəxsi qanunu xüsusi bir əhəmiyyət daşımamaqla bərabər eyni zamanda onun tətbiq edilməsinə də yol verilmir. Əqli mülkiyyətlə ilə əlaqədar olan xaricinin statusunun milli qanunlara uyğunlaşdırılması, həmçinin bu sahədə mövcud olan kollizion problemini aradan qaldırır və bu səbəbdən də beynəlxalq səviyyəli xüsusi hüququn predmeti qismində əqli mülkiyyət sferasında mövcud olan münasibətlər öyrənilən zaman, əksər hallarda yerli qanunlar vasitəsi ilə bu sahə üzrə xarici vətəndaşlara verilən hüquqların dairəsi eyni zamanda mühafizə imkanları üzərində dayanırlar.[9, s. 41-50]

Ümumiyyətlə, əqli mülkiyyət hüququ hüquq sistemində müstəsna rola malikdir. Müstəsna hüquq hesab edilməsi isə əqli mülkiyyətin obyektlərini ərsəyə gətirənlərin onların əqli əməyinin nəticəsi eyni zamanda yaradıcılıq sahəsində əldə etdiyi nəticəsinə görə subyektiv hüquqlar qazanması ilə bağlıdır. Müstəsnalıq dedikdə, əqli mülkiyyət hüququnun sadəcə onun subyektinə aidliyini ifadə edir.

Əqli mülkiyyətin tərkib hissələrindən biri də sənaye mükiyyətidir. Müəlliflik və əlaqəli hüquqlarla müqayisədə sənaye mülkiyyət hüququ müəyyən xüsusiyyətlərə əsasən fərqlənir. Hansı ki, müəlliflik hüququ dedikdə əqli mülkiyyət obyektinin formasını mühafizə edən hüquq nəzərdə tutulursa, sənaye mülkiyyəti ilə bağlı hüquq isə daha çox fikrin, kəşfin, o cümlədən

əhəmiyyətli modelin müəllifi tərəfindən düşünülüb yaradılmış həll yolunun məzmununu müdafiə edir.

İlkin yaradıcısından aslı olmayaraq ixtira, sənaye nümunəsi və faydalı modellər digərləri tərəfindən də yaradıla bilər.[7, s. 11-17]

Sənaye mülkiyyəti hüququnun obyektlərinin müəyyən tələblərə cavab verməsi əsas xüsusiyyətlərindən biri kimi xarakterizə olunur. Sənaye mülkiyyəti hüququnun obyektləri ilə bağlı bir sıra tələblər irəli sürülür ki, bunlara aiddir:

1. yenilik,
2. ilkinlik,
3. faydalıq və s.[9, s. 9-13]

Yenilik dedikdə mövcud olan məlumatlar üzrə hər hansı təkrarlanmaya yol verilməməsi başa düşülür və bu elə yenilik olmalıdır ki, hal-hazırda mövcud olan məlumatlar toplusuna məlum olmamalıdır. Mövcud məlumatlar özündə dünyada hamıya məlum olan məlumatları ehtiva edir. Bu səbəbdən burada universal və yaxud da lokal yenilikdən bəhs oluna bilməz.

Sənaye mülkiyyəti ilə bağlı hüququn başqa dövlətlərdə də mühafizəsi olunması üçün ölkələr arasında bir sıra ikitərəfli, regional həmçinin universal müqavilələr bağlanmışdır. Sənaye mülkiyyəti hüququ ilə bağlı sahədə qəbul olunan ilk universal müqavilə isə 1883-cü ildə bu sahənin mühafizəsi barəsində imzalanan Paris Konvensiyası hesab olunur. Paris Konvensiyası bir sıra konfranslardan təkrar nəzərdən keçirilmiş və eyni zamanda ona müvafiq əlavələr daxil edilmişdir. İştirakçıların mühafizəsi məqsədi ilə Konvensiyaya görə Beynəlxalq İttifaq qurulur. Konvensiya demək olar ki, yüz əllidən artıq ölkədə qüvvədədir.Azərbaycan Respublikası isə bu Konvensiyanın 14 sentyabr 1995-ci ildən etibarən iştirakçısı olmağa başlamışdır. Konvensiya keçmiş SSRİ isə 1 iyul 1965-ci il tarixindən etibarən üzv olmuşdur. Konvensiyanın Stokholm mətni isə 19 sentyabr 1968-ci il tarixində SSRİ tərəfindən ratifikasiya olunmuşdu.[9, s. 9-13]

Konvensiya və sənaye mülkiyyətinin mühafizəsi ilə bağlı olan normaların unifikasiyasının bir çox üstünlükləri vardır. Bu üstünlüklərlə əlaqədar olaraq aşağıda qeyd olunan məsələləri nəzərdən keçirmək olar:

1. Konvensiya vasitəsilə qurulan ittifaqın üzvü olan bütün dövlətlərin vətəndaşına ittifaqa daxil olan digər dövlətlər də həmin ölkələrin öz vətəndaşları üçün müəyyən etdikləri hansıki bu hüquqlar sənaye mülkiyyətinin mühafizəsi ilə əlaqədardır onlar da bu hüquqlardan istifadə edə bilmək imkanı ilə təmin olunurlar. Yəni bu o deməkdir ki, ittifaqın üzvü hesab olunan bütün ölkələrdə sənaye mülkiyyətinin mühafizəsi ilə bağlı milli rejim müəyyən olunmuşdur;
2. Konvensiya ilə ilkinlik yəni prioritetlik hüququ müəyyən olunmuşdur. İttifaqın üzvünə çevrilən hər hansısa bir dövlətdə ixtiraya, faydalı modelə, həmçinin də sənaye nümunəsinə və yaxud da əmtəə nişanına patent məqsədi ilə lazımi formada ərizə verən hərkəs və yaxud da şəxsin hüquqi varisi birbaşa olaraq İttifaqın üzvü hesab olunan başqa dövlətlərdə də Konvensiya ilə müəyyən olunan zaman müddətində ərizə təqdim etməyə görə üstünlük hüququ qazanır. İxtira həmçinin də faydalı modellərə patentə görə ilkinlik müddəti kimi 12 ay müddət, sənaye nümunəsi eyni həmçinin əmtəə nişanlarına görə isə 6 ay müddət müəyyən olunmuşdur,
3. Beynəlxalq sərgilər zamanı müvəqqəti olaraq mühafizə müəyyən etməklə yanaşı, ittifaqa üzv olan dövlətlər arasında patent qabiliyyəti ixtiraları həm də sənaye mülkiyyətinin bir sıra başqa obyektlərini eyni zamanda da onların ərazilərində təşkil olunan beynəlxalq səviyyəli sərgilərdə nümayişi vaxtı öz qanunvericiliyinə uyğun olaraq mühafizə etməyi öhdəliklərinə götürürlər. Onu da qeyd etmək lazımdır ki, ixtiranın sərgidə nümayiş olunması onun yeniliyinə hər hansı bir xələl gətirməməklə yanaşı sərginin təşkil edildiyi dövlətdə patentləşdirilməsinə də maneəçilik yaratmır.[9, s. 9-13]

1970-ci ildə Vaşiqtonda sənaye mülkiyyətini təşkil edən obyektlərin daha da səmərəli formada mühafizəsi məqsədi ilə patent kooperasiyası ilə bağlı

müqavilə imzalanır və 1973-cü ildə bu müqavilə qüvvəyə minmişdir. Həmin müqavilədə bugün ki dövrdə 100-dən artıq dövlət iştirak edir. Ölkəmiz isə 1995-ci ildən etibarən artıq bu müqaviləyə qoşulmuşdur. Sözügedən müqavilənin iştirakçıları da yeni ittifaq yaratmışdılar və bu ittifaq Beynəlxalq Patent Kooperasiyası adlanırdı. Həmin ittifaq tərəfindən ixtiranın mühafizəsi məqsədi ilə beynəlxalq ərizənin verilməsi və onunla əlaqədar axtarış o cümlədən ekspertizanın həyata keçirilməsi, bununla belə xüsusi olaraq texniki xidmətin göstərilməsi üzrə əməkdaşlığı tənzimləyir. Müqavilə ilə nəzərdə tutulanlardan biri də ölkənin patent idarələri sahəsində beynəlxalq axtarış üzrə orqanının yaradılmasıdır. Həmin orqanın mühüm vəzifəsi isə ərizəçinin ən əsas olaraq sənədli axtarışının aparılması eyni zamanda patentə görə ərizə verilən milli idarələrdə ekspertizanın həyata keçirilməsinin tətbiq olunmasından ibarətdir. Şəxsin öz xahişi olduqda isə axtarış həyata keçirən orqanı tərəfindən ilkin olaraq ekspertiza tətbiq oluna bilər və həmin eskpertizanın nəticələri ərizəçinin patent əldə etmək istədiyi dövlətin milli idarələrinə təqdim olunur və o dövlətin ölkə daxili qanunvericiliyində nəzərdə tutulan tələblərə cavab verən nəticələr olduğu halda patent verilməsi üzrə qərar qəbul olunur.[10, s. 60-85]

Vaşinqton Müqaviləsi Paris Konvensiyasından fərqləndirilir və buradakı ən əsas fərq isə Vaşinqton müqaviləsinin vahid beynəlxalq patentin yaradılmasını nəzərdə tutmamasıdır. Ancaq müqavilə bu istiqamət üzrə xeyli dərəcədə inkişaf etmiş və eyni bir ixtiranın bir çox milli qeydiyyatları ilə əlaqədar olaraq bir sıra çətinlikləri aradan qaldırmış, həmçinin də onun nisbətən operativliyini təmin etmişdir.[7, s. 11-17]

Əqli mülkiyyət hüquqlarının qorunması sahəsində beynəlxalq sazişlərdən biri də Bern sazişidir. Bern Konvensiyasının ilk variantı Belçika, Fransa, Almaniya, Böyük Britaniya, Haiti, İtaliya, Liberiya, İspaniya, İsveçrə və Tunis tərəfindən 9 sentyabr 1886-cı ildə Berndə yəni İsveçrədə imzalanmışdır və bu konvensiya 5 sentyabr 1887-ci ildə qüvvəyə minmişdir. [7, s. 11-17]

Konvensiyanın məqsədi müəllif hüquqları pozulduğu halda onları qoruma və o cümlədən qoruma tədbirlərini müəyyən edən normaları özündə ehtiva etməkdir.

Cenevrə şəhərində 14 oktyabr 2019-cu ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına(ÜƏMT)üzv olan dövlətlərin Baş Assambleyasının 59-cu sessiyası keçirilmişdir.

Həmin sessiyada:

1. beynəlxalq əqli mülkiyyət sisteminin inkişafı istiqamətləri müzakirə edilmiş
2. müxtəlif komitələrin hesabatları dinlənilmiş
3. regional qrup həmçinin də üzv dövlətlərin nümayəndələrinin çıxışları olmuşdur.

Sessiya müdətində regional komitələrdə, o cümlədən əqli mülkiyyət üzrə qəbul edilən konvensiyaların assambleyalarında olduqca vacib qərarlar qəbul olunmuş, həmçinin də rəhbər orqanlara seçkilər keçirilmişdir.[7, s. 11-17]

Bern Konvensiyanın tətbiq olunduğu ölkələr müəlliflərin həm ədəbi həm də bədii əsərlərinə olan hüquqlarının qorumaq məqsədi ilə İttifaq yaradırlar.

Bundan əlavə, maddi formada ifadə edilməyən ədəbi həmçinin bədii əsərlərə və yaxud da onların müəyyən olunan kateqoriyalarına qorunma üçün təminat verməmək hüququ İttifaqa daxil olan ölkələrin qanunvericiliyində saxlanılır.[9, s. 41-50]

Həmin konvensiya vasitəsi ilə müəyyən olunan qorunma günün yenilikləri haqqında olan xəbərlərə, və yaxud da fərqli hadisələr haqqında olan adi press-informasiya hesab olunan xəbərlərə şamil edilmir.[10, s. 60-85]

İşıq üzü görmüş əsər həmin əsərin bütün xüsusiyyətləri nəzərə alınmaqla, o cümlədən onların nüsxələrin hazırlanması üsul və formasından aslı olmayaraq, nüsxələrin sayının kütlənin tələbatlarını ödəyə biləcək miqdarda dövriyyəyə buraxılması şərti və müəlliflərin razılığına əsasən dərc olunmuş əsər başa düşülür.

Bu Konvensiyaya əsaslanaraq əsərlərinə münasibətdə qorunma tətbiq edilən müəlliflər, mövcud olan əsərin mənşə ölkəsindən savayı istənilən başqa İttifaq ölkəsində həmin ölkənin mövcud olan müvafiq qanunlarına uyğun olaraq onun öz vətəndaşlarına hazırda təqdim edilən və yaxud da gələcəkdə təqdim ediləcək hüquqlardan, o cümlədən bu Konvensiyaya əsasən xüsusi olaraq təqdim edilən hüquqlardan istifadə edir.[10, s. 60-85]

Nəticə etibarı ilə, bu Konvensiya vasitəsi ilə müəyyən olunan müddəalardan başqa, müəllifin öz hüquqlarını qoruması məqsədi ilə təmin olunan qorunmanın həcmi həmçinin də eyni dərəcədə müdafiə vasitələri yalnız qorunma tələb edilən ölkənin qanunvericiliyi ilə tənzimlənir, lakin mənşə ölkəsində isə qorunma yalnız daxili qanunvericilik vasitəsi ilə tənzim edilir.

Bütün bunlarla yanaşı, mənşə ölkəsinə görə bu Konvensiyanın ilə qorunma təminatı tətbiq edilən əsərin müəllifi əgər həmin ölkənin vətəndaşı deyilsə, o da bu ölkədə həmin ölkənin öz vətəndaşları eyni zamanda müəllifləri kimi bərabər hüquqlardan istifadə edir.

Müəllifin mövcud əmlakla bağlı hüquqlarından aslı olmayaraq həmçinində bu hüquqların təqdim edilməsindən sonra müəllifin onun əsərinə müəllifliyinin tanınmasını tələb etməklə yanaşı həmin əsərin təhrif olunmasına, mənasının dəyişilməsinə, o cümlədən, digər dəyişikliyə, bütün bunlarla yanaşı müəllifin şərəf, ləyaqətinə zərər gətirə biləcək digər hərəkətlərə görə qarşı çıxmaq hüququ mövcuddur.[7, s. 11-17]

Bu Konvensiyaya əsasən təqdim edilən qorunma müddəti isə müəllifin həyatı boyu həmçinin ölümündən sonrakı əlli ili əhatə edir.

İncəsənət əsərlərinin orijinallarına həmçinində yazıçı, o cümlədən də, bəstəkarların əlyazmalarına münasibətdə müəllif, müəllifin ölümündən sonra milli qanunvericiliyə əsasən səlahiyyət verilmiş şəxslər, və yaxud da təşkilatlar həmin əsərin müəllifi tərəfindən icra edilən ilk satışından sonrakı növbəti hər satışda pay iştirakçısı olmaq kimi ayrılmaz hüququndan istifadə edirlər.[7, s. 11-17]

Məbləğlərin həm yığılması, həm də ölçüləri milli qanunvericilik vasitəsi ilə tənzimlənir.

Əsərin bütün mövcud olan kontrafakt nüsxələri isə İttifaqın bu əsərin qorunduğu istənilən ölkəsində həbs olunmalıdır. Həbs ölkələrin hər birinin özünün qanunvericiliyinə əsasən tətbiq olunur.

## 1.2 Əqli mülkiyyət obyektlərinin gömrük xidməti tərəfindən reyestrinin aparılmasının və qorunmasının hüquqi mexanizmi

Gömrük xidməti dedikdə, gömrük qanunvericiliyinin tətbiq olunmasına, eyni zamanda gömrük ödənişlərinin tutulması sahəsində məsul olan dövlət xidməti başa düşülür.[5, s. 114-118]

Gömrük orqanları tərəfindən gömrük sərhədindən keçirilən hər bir əqli mülkiyyət hüququ obyekti olan mallarla bağlı hüquqların müdafiəsi məqsədi ilə gömrük məcəlləsi və digər müvafiq normativ hüquqi aktlar əsas götürülür.

Gömrük sərhədindən keçirilən mallara nəzarətin aparılması üçün onların hüquq sahibləri tərəfindən müraciət ərizəsi ünvanlanmaqla həmin mallar Dövlət Gömrük Komitəsi tərəfindən reyestrə daxil edilir və bu daxil etmə isə öz növbəsində həm kağız üzərində yazılı həm də elektron daşıyıcılarda həyata keçirilir.

Sözügedən reyestrin həyata keçirilməsi üzrə qaydalarını isə müvafiq icra hakimiyyəti orqanı yəni Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.[5, s. 114-118]

Hüquq sahibi tərəfindən və yaxud da onun maraqlarını təmsil edən digər bir şəxs tərəfindən yəni ərizəçi gömrük sərhədindən qanunsuz keçirilən və ya keçirilmə ehtimalı olan tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan mallarla bağlı hər hansı hüquq pozuntusunun ola biləcəyi ilə bağlı kifayət qədər əsası olduğu təqdirdə həmin pirat və yaxud da kontrafakt malların buraxılmasının qarşısının alınması yəni dayandırılması məqsədi ilə müvafiq orqana müraciət etmək hüququna malikdir. Nəticədə həmin mallar reyestrə daxil edilir. [5, s. 114-118]

Şəxs tərəfindən malların reyestrə daxil edilməsi ilə bağlı müraciət ərizəsində aşağıda göstərilənlər haqqında məlumatlar təqdim olunmalıdır.

1. Mallarla bağlı hüquq sahibi olan şəxs haqqında məlumat
2. əqli mülkiyyət hüquqlarının obyektinə daxil edilən mallarla bağlı hüququn olması haqqında məlumat;
3. reyestrə daxil ediləcək malın təsviri;

4. əqli mülkiyyət obyekti hesab olunan malların pirat və yaxud da kontrafakt olub-olmadığını ortaya çıxarmağa imkan verən məlumatlar;
5. nəticədə malların nə pirat nə də kontrafakt olmadığı müəyyən olunduğu təqdirdə, həmin mallarla bağlı buraxılışın dayandırılması səbəbindən bəyannaməçiyə, mal sahibinə və ya başqa mallarla əlaqədar maraqlı şəxslərə dəymiş zərərin, bununla belə gömrük orqanlarının xərclərinin ödənilməsinə ilə bağlı ərizəçinin öhdəliyi.

Həmin mallarla bağlı gömrük orqanlarına təminat təqdim edilir və bu təminat məbləğinin minimum və maksimum həddi Nazirlər Kabineti tərəfindən məyyən olunsa da həmin təminatın məbləği isə gömrük orqanları tərəfindən müəyyən ediləndə məbləğdə ödənilir. [5, s. 114-118]

Müraciət ərizəsi ilə birgə həmin mallarla bağlı nümunələr də gömrük orqanlarına təqdim oluna bilər.

Dövlət Gömrük Komitəsi tərəfindən daxil olunan ərizələrə 1 ay müddətində baxılır və bununla bağlı müvafiq qərar 3 gün ərzində qəbul olunmaqla reyestrə daxil olunur və 1 günə şəxsə yazılı formada məlumat verilir.

Əqli mülkiyyət hüququ obyekti olan malların reyestrə daxil edilməsi zamanı aşağıda qeyd edilən məlumatlar daxil olunur:

**1.** malların qeydə alınmasını bildirən qeydiyyat nömrəsi;
**2.** malların adı eyni zamanda təsviri;
**3.** hüquq sahibi barəsində məlumatlar;
**4.** əqli mülkiyyət hüquqlarının obyektinə dair hüququn olması haqqında məlumat;
**5.** malların həmin reyestrə daxil olunduğu tarix;
**6.** xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına görə malların kodu;
**7.** reyestrə daxil olunmuş mallar haqqında Komitə tərəfindən gömrük orqanlarına yönləndirilmiş məktubun tarixi həmçinin qeydiyyat nömrəsi. [5, s. 114-118]

Əqli mülkiyyət üzrə obyektlərin reyestrə daxil olunmasına aid olan qeydiyyat nömrəsi bu [XXXXX/YYY/ZZ/GGAAİİ] işarələr vasitəsi ilə yaradılır. Burada qeyd olunan işarələr isə aşağıdakılar ilə ifadə olunur:

1. XXXXX – Komitənin mallarla bağlı ardıcıl formada verdiyi beş rəqəmdən ibarət olan nömrə;
2. YYY - Komitənin tərəfindən qəbul olunan qərarın üç rəqəmdən ibarət olan nömrəsi;
3. ZZ – həmin obyektin növünün iki hərfdən ibarət kodu;
4. GGAAİİ - malların reyestrə daxil olunması ilə bağlı tarixi, hər biri iki rəqəm vasitəsi ilə göstərilməklə gün, ay, il.[2]

Çatışmazlıqlar olduğu təqdirdə isə onlar aradan qaldırıldıqdan sonra tərkibində həmin malların reyestrə daxil olunması haqqında ərizə ilə təkrar müraciət oluna bilər.

Əgər ərizədə və yaxud da ona əlavə edilmiş sənədlərdə mövcud olan məlumatlarda hər hansı bir dəyişiklik baş verdiyi halda, ərizəçi tərəfindən dərhal bu haqqda Dövlət Gömrük Komitəsinə məlumat verməlidir.[2]

Əgər reyestrə daxil olunması nəzərdə tutulan mallar yanlış məlumatlar əsasında reyestrə daxil edilibsə həmin mallar haqqında müvafiq orqana məlumat verilməlidir və o həmin reyetsrdən çıxarılır.

Əqli mülkiyyət hüququ obyektləri ilə bağlı olaraq hüquq sahibinin hüquqlarının müdafiəsi müddəti Dövlət Gömrük Komitəsi tərəfindən obyektin reyestrə daxil edilməsi barəsində qərar qəbul edildiyi gündən etibarən ərizəçinin qeyd etdiyi müddət nəzərə alınmaqla, 5 ilədək müəyyən edilir. Ərizəçinin müraciəti olduğu halda, Dövlət Gömrük Komitəsinin müvafiq qərarına əsasən həmin müddət uzadılır.[3]

Bu mallarla əlaqədar müəyyən edilən müddət şəxsin həmin mallarla bağlı hüququnun qüvvədə olma müddətindən artıq nəzərdə tutulmamalıdır.

Reyestrə daxil olunmuş tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri hesab edilən malların gömrük orqanları tərəfindən rəsmiləşdirilməsi habelə

gömrük nəzarətinin tətbiq olunması zamanı həmin malların pirat və yaxud da kontrafakt olması əlamətləri aşkar olunarsa, həmin malların buraxılışı gömrük rəsmiləşdirilməsini icra edən gömrük orqanının rəhbəri eyni zamanda da onu əvəz edən şəxsin qərarına əsasən 10 iş günü müddətinə dayandırılır. Ərizəçi tərəfindən əsaslandırılmış müraciəti olduğu halda isə, qeyd olunan müddət əlavə olaraq 10 iş gününə qədər uzadılır.[1]

Buraxılışı dayandırılmış əqli mülkiyyət hüququ obyekti hesab edilən mallar haqqında gömrük bəyannaməsinin əsas yaxud da əlavə vərəqində yerləşən nəzarət qrafasının üzərində buraxılışı dayandırılıb qeyd olunur.

Buraxılışı dayandırılmış əqli mülkiyyət hüququ obyekti olan mallara dair qəbul olunmuş qərarın müddəti artırıldığı halda, gömrük bəyannaməsinin əsas və yaxud da əlavə vərəqi üzərində yerləşən nəzarət qrafasında malların buraxılışının dayandırılması ilə bağlı müddətinin uzadılması tarixi əks etdirilməklə qeyd olunur.[1]

Əgər təqdim olunan bəyannamədə pirat və yaxud da kontrafakt malların olması ilə yanaşı digər bəyan olunmuş mallar mövcuddursa, əqli mülkiyyət hüququ obyekti olan malların buraxılışı dayandırılıbsa, bu malların buraxılışışn dayandırılması ilə bağlı verilən qərar həmin bəyan olunmuş malların buraxılışına maneə yaratmamalıdır. [1]

Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri hesab olunan malların gömrük orqanı tərəfindən buraxılışının dayandırılması haqqında qəbul etdiyi qərar barədə və buraxılışın dayandırılmasının səbəbləri göstərilməklə bəyannaməçiyə həmçinin də ərizəçiyə dərhal yazılı bildiriş göndərilir, hansı ki, burada bəyannaməçinin eyni zamanda ərizəçi haqqında bəzi məlumatlar, məsələn adı və soyadı, eləcə də atasının adı, yaşadığı və qeydiyyatda olduqları yer barədə məlumatlar öz əksini tapmalıdır. [1]

Ərizəçi və yaxud bəyannaməçi tərəfindən yalnız gömrük orqanlarının icazəsi olduğu təqdirdə buraxılışı dayandırılmış mallardan prob və nümunələr

götürə bilərlər, həmçinin də həmin malların tədqiqatını apara bilərlər, lakin bu gömrük nəzarəti altında həyata keçirilməlidir.

Əgər gömrük orqanı tərəfindən mallara dair buraxılışın dayandırılması haqqında bildiriş ərizəçiyə təqdim olunduqdan sonra müəyyən olunan müddət ərzində ərizəçinin iddiası üzrə məhkəmədə işin mahiyyətinə görə baxılmağa başlanması haqqında gömrük orqanlarına informasiya daxil olmadığı təqdirdə, tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük məcəlləsinə əsasən müəyyən olunmuş qaydada gömrük rəsmiləşdirilməsi həmçinin də buraxılışı həyata keçirilir.[5, s. 114-118]

Həmin işlərə dair ərizəyə məhkəməyə daxil olduğu müddətdən sonra 20 iş günündən gec olmayaraq müddətdə mahiyyətinə görə baxılmağa başlanmalı həmçinin də bu haqqda məhkəmə tərəfindən gömrük orqanına məlumat verilməlidir. Malların pirat və yaxud da kontrafakt olduğu aşkar olunduqda, onlar haqqında qanunvericilikdə müəyyən edilmiş qaydada tədbirlər tətbiq edilir. [5, s. 114-118]

Gömrük orqanları tərəfindən bəzi hallarda malların buraxılışının dayandırılması barədə qərar müddət bitənə qədər ləğv edilir.

Bu hallar isə aşağıda qeyd edilənlərdir.

- qərarın ləğv olunması ilə əlaqədar ərizəçi tərəfindən müraciət olduqda;
- mallar reyestrdən çıxarıldıqda. [5, s. 114-118]

Əqli mülkiyyət obyektləri hesab olan, ancaq reyestrə daxil olunmayan, eləcə də ərizəçinin müraciətində qeyd olunmayan malların pirat və yaxud da kontrafakt olması ilə bağlı əlamətləri gömrük orqanları aşkar etdiyi zaman, gömrük orqanları həmin malların buraxılışını dayandırmaq hüququna malikdirlər. [5, s. 114-118]

Bu qanunvericilik fiziki şəxslərin az miqdarda gömrük sərhədindən keçirdikləri və yaxud da beynəlxalq poçt vasitəsi ilə göndərilən istehsal həmçinin digər kommersiya fəaliyyəti məqsədilə nəzərdə tutulmayan mallara tətbiq edilmir.

Əqli mülkiyyət hüquqlarının mülki qaydada hüquqi müdafiəsinin təmin olunması üzrə prosedurlar bərabər, ədalətli və sadə olmaqla yanaşı, eyni zamanda səmərəsiz şəkildə ləngimələrə səbəb olmamalı həmçinində Azərbaycan Respublikasının mövcud mülki prosessual qanunvericiliyində göstərilən qaydada həyata keçirilməlidir.

Əqli mülkiyyət hüquqlarının tələblərinin yerinə yetirilməməsinə dair mülki işlərlə bağlı olaraq sübutların tələb edilməsi eyni zamanda onların təmin olunması məqsədi ilə tədbirlər Mülki Prosessual Məcəlləssinə əsasən orada nəzərdə tutulan qaydalara əsasən həyata keçirilir.[3]

Hüquq sahibinin həmçinin onun nümayəndəsinin əsaslandırılmış eyni zamanda rəsmi müraciəti olduğu halda, əqli mülkiyyət hüquqlarının yerinə yetirilməməsi ilə bağlı olaraq mülki işə baxan məhkəmə tərəfindən hüquqpozma törətmiş şəxsdən pirat və yaxud da kontrafakt malların istehsal olunmasında, yayılmasında həm də əqli mülkiyyət hüquqlarına zidd olan xidmətlərin göstərilməsində birbaşa,və ya dolayı formada iştirak edən üçüncü şəxslər haqqında, habelə belə məhsulların yayılma vasitələri və üsulları barəsində məlumatların hüquq sahibinə verilməsini cavabdeh şəxsdən tələb etmək hüququ vardır. [3]

Burada qeyd olunan halda məhkəmə tərəfindən aşağıdakı informasiyalar tələb oluna bilər.

1. pirat və yaxud kontrafakt malları istehsal edən, həmçinin saxlayan və yayan, habelə həmin məhsulların satışını edən şəxslərin adları və ünvanları;
2. hazırlanan yaxud da istehsal olunan, göndərilən, qəbul olunan və ya sifariş edilən pirat və yaxud kontrafakt malların kəmiyyəti və qiyməti.

Hüquq pozmuş şəxsin əqli mülkiyyətdən obyektindən qeyri-qanuni formada istifadəsi ilə əlaqədar hərəkətlərinin qanunauyğun olmadığını bilmədiyi və yaxud da qanunsuz olduğunu bilməsi üçün lazımi qədər əsasları olmadığı təqdirdə də məhkəmə hüquq sahibinin zərərinin qarşılığının ödənilməsi haqqında qərar qəbul etmək üzrə hüquqa malikdir. [3]

Zərər müəyyən olunarkən isə aşağıdakıları nəzərə almaq lazımdır:

1. hüquq sahibinə aid olan əqli mülkiyyətdən qanunsuz istifadə olunması nəticəsində hüquqpozma törətmiş şəxsin əldə etdiyi gəlirlər;
2. hüquq sahibi hüquqlarının pozulması ilə bağlı vəkil xidmətindən istifadə edir və qanun pozuntusunun aradan qaldırılması məqsədilə vəkilə ödədiyi haqq da daxil olunmaqla hüquq sahibinin çəkdiyi və yaxud da çəkməli olduğu xərclər;
3. əgər hüquq sahibinin hüquqları pozulmasaydı, ona aid olan əqli mülkiyyəti qanuni şəkildə istifadəyə verəcəyi halda əldə edəcəyi gəlirlər yəni bir sözlə əldən çıxmış fayda. [3]

Məhkəmə hüquqpozmaya səbəb olan mallarla bağlı aşağıda qeyd edilən qərarlardan birini qəbul etmək hüququna malikdir.

a) ticarət şəbəkəsindən kompensasiya ödənilmədən çıxarılması,
b) malların hazırlanmasında başqa sözlə istehsalında istifadə edilən materialların həmçinin avadanlıqların istifadəçidən götürülməsi,
c) son olaraq isə müsadirə və yaxud da məhv edilməsi barədə.

Bu kimi məsələlərə baxılan zaman nəzərə alınmalı amillərdən biri də üçüncü şəxslərin qanuni maraqlarıdır.

Məhkəmə tərəfindən qəbul olunan qərarlar qanunvericiliklə müəyyən olunmuş qaydalara uyğun olaraq internet üzrə informasiya ehtiyatlarında yerləşdirilməlidir.

Burada nəzərdə tutulan məhkəminin müvafiq qərarları haqqında məlumatların yayılmaması üçün məhkəmə hüquq pozuntusuna səbəb olan şəxsin hesabına əlavə olaraq aşkarlıq tədbirlərinin həyata keçirilməsini, eyni zamanda bu məlumatların aydın formada görülə bilən lövhələrdə yerləşdirilməsini təmin etmək hüququna da malikdir.

Məhkəmənin mülki iddiaların təmin olunması üçün müvafiq qanuna eyni zamanda ölkəmizin Mülki Prosessual Məcəlləsinə əsasən təcili həmçinin

səmərəli formada müvəqqəti tədbirlər haqqında qərardad çıxarmaq hüququ vardır. [3]

Əqli mülkiyyət sahəsində hüquqların pozulması ilə bağlı olan iddianı təmin etməklə bağlı tədbirlər aşağıda qeyd edilən məqsədlər üçün həyata keçirilir:

- əqli mülkiyyət üzrə hüquqların pozulmasına gətirib çıxaran pirat həmçinin kontrafakt malların hazırlanmasının başqa sözlə istehsal olunmasının və ayrı-ayrı üsullarla yayılmasının qarşısını almaq;
- pirat və yaxud da kontrafakt malların ticarət şəbəkələrinə daxil olunmasının qarşısını almaq;
- əqli mülkiyyət üzrə hüquqların ehtimal edilən pozuntularına dair sübutları qorumaq.

Qərardadın qəbul olunması ilə əlaqədar hər hansısa bir gecikdirmə səbəbindən hüquq sahibinə bərpaolunmaz zərər vuracaqsa habelə sübutların məhv oluna biləcəyi haqqında əsaslı risk mövcud olarsa, məhkəmə tərəfindən iddianın təmin olunması barədə qərardadı cavabdeh şəxsin və yaxud da işdə iştirakı olan digər şəxslərin iştirakı olmadan, ancaq qəbul olunmuş qərardad haqqında onlara dərhal məlumat vermək şərti ilə çıxarır.

İddiaçı hüquq sahibi olmasını həmçinin hüquqlarının pozulması, yaxud bu cür hüquq pozuntusunun qaçılmaz hal olduğunu təsdiq edən sübutları məhkəmənin müvafiq tələbinə əsasən ona təqdim etməlidir. [3]

Hüquqpozma faktı təsdiq olunmadığı təqdirdə iddianı təmin etmək məqsədi ilə həyata keçiriləcək bütün tədbirlərin cavabdeh şəxsə vura biləcəyi ehtimal edilən zərərin qarşılığının ödənilməsinin təmin olunması məqsədi ilə məhkəmə iddianın təmin olunması barədə qərardad çıxaran zaman ərizəçidən girov və yaxud da ona bərabər qiymətli başqa təminat verməsini tələb edə bilər.

İşdə iştirakı olan şəxsləri də dinlədikdən sonra müvafiq iddianın təmin olunması üçün nəzərdə tutan tədbirləri ləğv edə bilər.

İddianı təmin etmək məqsədi ilə nəzərdə tutulan tədbirlərin ləğv edilməsi və yaxud da ərizəçinin hərəkəti və ya hərəkətsizliyinin nəticəsində dayandırıldığı

təqdirdə, habelə bu hüquqların pozulmadığı eyni zamanda pozulma təhlükəsinin olmadığı müəyyən olunduqda, məhkəmə cavabdeh şəxsin ərizəsinə əsasən həmin tədbirlərin şəxsə vurduğu zərərin iddiaçının ödəməsi haqqında qərar qəbul etmək hüququna malikdir.

Müəlliflik hüququ həmçinin əlaqəli hüquqlar üzrə obyektlərin hüquqi olaraq qorunmasının təmin olunması məqsədi ilə bu obyektlərdə unikal rəqəmli kodlardan istifadə edilir, hansı ki, bu kodlar müəlliflik hüququ habelə əlaqəli hüquqların obyektlərinin yaradılmasının mənşəyi barədə informasiyanı eyniləşdirmək üçün şərait yaradır.

Ölkəyə gətirilən müəlliflik hüququ o cümlədən əlaqəli hüquqlar obyektlərinə nəzarət üzrə markalarının əlavə edilməsi rəsmiləşdirilmə həyata keçirildikdən sonra icra edilən prosesdir. Həmçinin bu markaların qəsdən olaraq məhv olunması, saxtalaşdırılması və ən əsası qeyri-qanuni formada hazırlanması, istifadə olunması və satılması bir qayda olaraq qadağandır. Bu formada istifadə qanunla nəzərdə tutulan formada məsuliyyətə səbəb olur.

## II FƏSİL: Əqli mülkiyyətin iqtisadi fəaliyyət subyektlərinə təsiri və onların müdafiə üsulları

### 2.1 Əqli mülkiyyətin iqtisadi fəaliyyət subyektlərinə təsiri

Azərbaycan Respublikası Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1995-ci ilin 25 dekabr tarixindən etibarən üzvdür və bu qurum beynəlxalq səviyyədə böyük nüfuza malik olan təşkilatlardandır.Həmçinin onu da qeyd etmək məqsədəuyğundur ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Birləşmiş Millətlər Təşkilatının mövcud 16 ixtisaslaşmış təşkilatından biri hesab edilir və eyni zamanda əqli mülkiyyət sferasına beynəlxalq o cümlədən də milli qanunvericiliklərin inkişafı həmçinin də bununla bağlı olan beynəlxalq aləmdə görülən bütün işlərin həm idarə edilməsini həm də koordinasiyasını həyata keçirir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatına hal hazırda 191 ölkə üzvdür.

Azərbaycan Respublikası Ümumdünya Əqli Mülkiyyət Təşkilatının inzibati idarəçiliyini yerinə yetirdiyi əqli mülkiyyət sferasında qüvvədə olan bir çox çoxtərəfli konvensiya o cümlədən də müqavilə və sazişlərə qoşulmuşdur. [10, s. 60-85]

Azərbaycan Respublikasının Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə əməkdaşlığı nəticəsində nəinki müəlliflik hüququ və əlaqəli hüquqlar, eyni zamanda sənaye mülkiyyəti hüquqları sferasında bir sıra birgə beynəlxalq və regional tədbirə o cümlədən layihələr reallaşmış, əqli mülkiyyət hüquqlarının qorunmasını həmçinin də müdafiəsini təmin edən qanunvericilik üzrə bazanın formalaşdırılması bununla yanaşı mövcud sahə üzrə həm mütəxəssislərin hazırlanmasında həm də ixtisaslarının artırılmasında, əqli mülkiyyət sahəsində hüquqların qorunması sisteminin inkişaf etdirilməsi, hüquq-mühafizə fəaliyyətini həyata keçirən orqanların əməkdaşları, eləcə də hakimlər üçün bu sahə üzrə xüsusi təcrübə eyni zamanda təlim kurslarının təşkil edilməsi və digər istiqamətlərdə birlikdə işlər həyata keçirilmişdir. [10, s. 75-85]

Əqli Mülkiyyət Agentliyi 2018-ci ildə yaradılmışdır.

Əqli Mülkiyyət Agentliyi həm dövlət həm də ictimai əhəmiyyətə malik olan fəaliyyətlə məşğul olur. Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin məqsədi isə ölkədə hazırki əqli mülkiyyət hüquqları sferasının səmərəli və əlverişli fəaliyyətini, bununla yanaşı dayanıqlı inkişafını həmçinin şəffaflığını təmin etmək və bu sahədə mövcud olan hüquq sahiblərinin hüquqlarını müdafiə etmək, əqli mülkiyyət sahəsində bilikləri və məlumatları cəmiyyətinə təsiri yüksəltmək və bu Nizamnamədə müəyyən olunan fəaliyyəti yerinə yetirərkən bu hüquqların tənzimlənməsi üzrə ən vacib prinsip və standartları əsas götürməkdir.[4]

Bundan başqa 2006-cı ildə Azərbaycan Respublikası və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında bu sahədə Əməkdaşlıq Proqramı dərhal sonra isə yəni 2014-cü ildə əməkdaşlıqla bağlı Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixində 2469 nömrəli Sərəncamına əsasən təsdiq olunmuş prioritetlərə əsasən yaranan vəzifələr üzrə dövlətimizin qarşıya qoyduğu məqsədlərə nail olmaq naminə formalaşdırılan məqsədyönlü siyasət, icra olunan islahatlar eyni zamanda bununla bağlı həyata keçirilməli olan innovasiya üzrə siyasəti qlobal sosial-iqtisadi sferalarda rolu o cümlədən əhəmiyyəti daimi olaraq artmaqda olan əqli mülkiyyət sistemi qarşısında bir sıra böyük vəzifələr qoymaqla yanaşı eyni zamanda milli səviyyəli prioritetlər üzrə dayanıqlı şəkildə daimi formada artan rəqabətə davamlı iqtisadiyyata çevrilməsini zəruri etmişdir. [4]

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixində 3378 nömrəli Sərəncamına əsasən təsdiq olunan stategiyasında qarşıya qoyulan aidiyyəti vəzifələrin həyata keçirilməsi üzrə hesabat ilində ixtira o cümlədən də patent fəallığının çoxaldılması, mövcud sahədə texnologiyaların kommersiyalaşdırılması və transfer olunması, əqli mülkiyyət üzrə hüquqların beynəlxalq səviyyəyə uyğun olaraq qeydiyyatının stimullaşdırılması və effektiv şəkildə patent qeydiyyatı üzrə prosedurlarının qurulması, əqli mülkiyyətlə bağlı məlumat bazasının artırılması və patentlərə aid beynəlxalq

göstəricilər nəzdində ölkənin texnologiya baxımdan profilinin (patent landşaftının) eyni zamanda da tədqiqat sahələrinin müəyyən olunması, texnologiya səviyyəsinin inkişafının dəyərləndirilməsi istiqamətləri üzrə tədbirlər hesabat ili dövründə də Əqli Mülkiyyət Agentliyi tərəfindən son dərəcə uğurla davam etdirilmişdir. [4]

Agentlik mühüm vəzifələrinin icra olunması ilə yanaşı, Strategiyada müəyyən olunmuş fəaliyyət strukturuna müvafiq olaraq elmi potensialın inkişaf etdirilməsi sahəsində stimul mexanizmlərinin yaradılması və Azərbaycan elminin beynəlxalq səviyyədə mövqeyinin artırılması ilə bağlı olan müvafiq səlahiyyətləri daxilində müvafiq işlərin həyata keçirilməsində də fəal iştirak edir.

Agentlik hesabat dövründə Azərbaycan mallarının Azərbaycan brendi markasının hədəf bazarlarında fəal təşviqi həmçinin ixrac üzrə həcmin artırılması, o cümlədən mədəni və sosial inkişafın maksimum səviyyədə sürətləndirilməsi üçün bu sahə üzrə yeni hüquqi eyni zamanda tənzimləyici infrastrukturun formalaşdırılması, bununla yanaşı normativ hüquqi mexanizmlərin, statistika bazası üzrə mexanizmlərin, əqli mülkiyyət və idarəetmə ilə bağlı mexanizmlərin formalaşdırılması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlərin fəal iştirakçısı olmuşdur. [4]

Ölkənin innovasiya üzrə siyasətinin yerinə yetirilməsinə xidmət edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mövcud qabaqcıl və uzaqgörən strateji siyasətindən meydana gələn institusional islahatlar əsasında əqli mülkiyyətin inkişaf edən mahiyyətinə müvafiq olaraq unikal formada idarəetmə qurumu kimi formalaşdırlan Agentliyin fəaliyyətinin ən vacib istiqamətini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli 2199 saylı Sərəncamına əsasən formalaşdırılan biznes mühiti və ümumdünya reytinqlər səviyyəsində Komissiyanın nəzdində bu məsələlərlə bağlı Xüsusi İşçi Qrupunun əsası qoyulmuşdur. Həmin bu işçi qrup müvafiq olaraq dövlət

qurumları ilə birlikdə beynəlxalq səviyyəli reytinqlərdə Azərbaycanın mövqeyinin inkişaf etdirilməsi və əqli mülkiyyətlə bağlı sahələr haqqında məlumatlılıq səviyyəsinin artırılmasına dəstək göstərməklə yanaşı digər qruplar arasında əqli mülkiyyət üzrə koordinasiyasını təşkil edir.




| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| müəllif sayı | 233 | 405 | 388 | 386 |
| əsər sayı | 454 | 851 | 594 | 2.8 |

elektron qaydada qeydiyyatdan keçirilimiş əsərlər üzrə məlumat.




| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| müəllif sayı | 91 | 231 | 131 | 324 |
| əsər sayı | 192 | 371 | 169 | 713 |

**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin 2020-2023-cü illər üzrə yekun hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Son dövrlərin müqayisəsinə əsasən qeydiyyatdan keçən əsərlər üzrə nisbi göstəricilər aşağıdakı kimidir.

| İllər | Ümumi əsər say | Faizlə |
|---|---|---|
| 2019 | 13065 əsər | 17,83 % |
| 2020 | 13826 əsər | 18,86 % |
| 2021 | 15048 əsər | 20,52 % |
| 2022 | 15811 əsər | 21,56 % |
| 2023 | 15566 əsər | 21,23 % |

**Mənbə**:Əqli Mülkiyyət Agentliyinin 2019-2023-cü illər üzrə yekun hesabatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır

Azərbaycanda bu sahədə fəaliyyəti tənzimləmək məqsədi ilə bir sıra qanunvericilik aktları qəbul olunmuşdur.

Kreativ sənaye digər ölkələrdə olduğu kimi bizim ölkəmizin ümumi iqtisadiyyatında da vacib rol oynayır. Hesabat zamanı 2023-ci ilin 1 yanvar tarixinə olan vəziyyətə əsasən müəllif hüququna əsaslanan yəni kreativ sənaye sahələrinin milli iqtisadiyyat sahələri üzrə mövcud olan hazırki statistik göstəricilər həmçinin də dövlət büdcəsi ilə bağlı olan rəqəmlər toplanmış eləcə də təhlil olunmuşdur. Milli iqtisadiyyatda müəllif hüququ sahələrində istehsalın həcmi müəyyən olunduqdan sonra, həmin sahələrin ümumi ölkə üzrə ümumi daxili məhsulda ifadə etdiyi xüsusi çəkisi hesablanmışdır. 2022-ci il tarixində Azərbaycanda müəlliflik hüququ ilə bağlı olan sahələrdə istehsalın ümumi həcmi 5730,3 mln. manatdan təşkil olunmuşdur. Onu da qeyd edək ki, əvvəlki

illə müqayisə edildikdə dəyər üzrə kreativ sənayedə mütləq artım 14,8% təşkil etmişdir. Və son ilə baxsaq, 2023-ci ilin 1 yanvar tarixinədə mövcud olan vəziyyətə əsasən dövlətin Ümumi Daxili Məhsulda payı əvvəlki illə müqayisə olunduqda müəyyən qədər azalma müşahidə edilməklə 4,3% təşkil edib. Payın miqdarı dövlətin Ümumi Daxili Məhsulunun əhəmiyyətli səviyyədə artması ilə əlaqədardır. [4]

1. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən 2003-cü ildə tarixində ölkənin Ümumi Daxili Məhsulunda müəllif hüquqları ilə bağlı olan sənayenin payının müəyyən olunması ilə əlaqədar olaraq Metodiki tövsiyələr qəbul olunmuş və eyni zamanda ona uyğun olaraq kreativ sənaye sahələri müxtəlif qruplarda birləşdirilmişdir. İlk olaraq əsas sahələr hansıkı bu sahəyə əsasən kreativ sənayenin burada payı 52,7% -dir;
2. Qarşılıqlı şəkildə asılılıq münasibətlərində olan sahələr;
3. müəllif hüququna qismən əsaslanan sahələr;
4. son olaraq köməkçi sahələr aid olunur.




**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin nəşrləri üzrə müəllif hüququna əsaslanan sahələr üzrə kreativ sənaye sahələrinin bölgüsü üzrə məlumatlara əsasən hazırlanmışdır

Nəzarət markalarının tətbiq edilməsi əqli mülkiyyət hüquqlarının təmin edilməsində vacib rola malikdir.[2]
Hesabat ilində müəyyən edilmişdir ki, müəlliflik hüququ və əlaqəli hüquqlar ilə əlaqədar olaraq onların obyektlərinin nüsxələrinə yapışdırılması məqsədi ilə hüquqi və fiziki şəxslər tərəfindən edilən müraciətlərə əsasən mülki dövriyyədə istifadə edilən çap məhsullarına yapışdırmaq məqssədilə ümumilikdə 61921 ədəd nəzarət markası təqdim olunmuşdur. [4]
Nəticə etibarilə aidiyyəti dövlət orqanları ilə həyata keçirilən birgə tədbirlərin yekunu olaraq, 2005-ci illə müqayisə etsək piratçılığın həcmi kitab satışı sahəsində 61%-dən 20%-ə qədər enmiş, audio-video məhsul bazarında isə bu göstərici 90%-dən 53%-ə qədər, proqram təminatı üzrə faiz 96%-dən 70%-ə qədər düşmüşdür.







**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin yekun hesabat nəşrində piratçılığın qarşısını almaq üçün mübarizə üzrə məlumatlara əsasən hazırlanmışdır.
2023-cü ildə müvafiq reyestrdə ixtiralarla bağlı olaraq ümumilikdə103 ədəd patentin qeydiyyatı aparılmışdır və onlaın 87-si milli, 16-sı isə xarici hüquqi

şəxslərə aid olmuşdur.




**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin yekun hesabat nəşrində qeydiyyata alınmış patent saylarının müqayisəsi üzrə məlumatlara əsasən hazırlanmışdır.

Hesabat dövründə reyestrdə 3145 əmtəə nişanı qeydiyyata alınmış və onlardan 2541-i milli, 604-ü isə qeyri rezident fiziki şəxsə eləcə də hüquqi olan şəxslərə məxsusdur. 2022-ci il tarixində reyestrdə qeydiyyatı aparılmış 2927 əmtəə nişanından isə 2208 ədədi milli, 719 ədədi isə xarici fiziki o cümlədən hüquqi şəxslərə aid olmuşdu.




| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| milli | 482 | 1453 | 2208 | 2541 |
| xarici | 561 | 926 | 719 | 604 |

**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin yekun hesabat nəşrində əmtəə nişanlarının qeydiyyatı üzrə məlumatlara əsasən hazırlanmışdır.

Son dövrülərdə əqli mülkiyyət üzrə həyata keçirilən məqsədəuyğun tədbirlər ölkəmizin beynəlxalq reytinqlərdə olan mövqelərinin mütəmadi olaraq möhkəmləndirilməsində olduqca əhəmiyyətli rola malikdir. Qlobal İnnovasiya İndeksi (Qİİ) üzrə 2023 Hesabatı"na əsasən mövcud olan nüfuzlu 132 ölkə arasında ölkəmiz həmin resurslar üzrə alt indeksinə görə reytinqdə üç pillə inkişaf edərək 76-cı yeri tutur.

## 2.2 İnternet şəbəkəsində müəlliflik hüquqlarının pozulması və onların müdafiəsi üzrə təşkilati tədbirlər

1. Müasir dövrdə mövcud olan informasiya cəmiyyətində elektron ticarət dövlətin vacib qanunvericilik və tənzimləyici funksiyası ilə olduqca sıx bağlıdır. Son dövrlərdə internet şəbəkəsinin surətli inkişafı onun əqli mülkiyyət hüququ obyektlərinin virtual bazarına çevrilməsinə gətirib çıxarmaqla yanaşı həmçinin də internet şəbəkəsində satışə həyata keçirilən dörd obyektdən üçünün əlaqəli hüquqlar eyni zamanda da müəlliflik hüququ vasitəsi ilə müdafiəsi həmin problem üzrə dövlətlərin diqqətinin xeyli artmasına səbəb olmuşdur.[14]

Agentliyin nümayəndəsi tərəfindən Milli Məclisin elektron ticarət barəsində Qanuna uyğun olaraq layihə yaradaraq işçi qrupunun tərkibinə daxil olunmuş, eləcə də əqli mülkiyyət üzrə öz tövsiyələrini hazırlayıb təqdim etmişdir.[4]

Azərbaycanda informasiya texnologiyaları və əqli mülkiyyət hüquqları arasında əlaqənin səviyyəsinin müəyyən edilməsi, həmçinin də onların bir-birinə təsir dərəcəsinin araşdırılması və təhlili əsas problemlərdən biri olduğu üçün informasiya texnologiyaları üzrə obyektlərin əqli mülkiyyət sistemi sferasında təsnifatının həyata keçirilməsini tələb edir.[7, s. 11-17] İnformasiya texnologiyaları dedikdə, aşağıdakılar nəzərdə tutulur.

1. kompüter proqramları,
2. məlumat topluları,
3. inteqral sxem topologiyaları,
4. biznes layihələri və digərləri.[4]

Burada mövcud olan əsas problemlərdən birincisi hüquq sahibləri və yaxud da hüquqlarının təmsil olunması səlahiyyətini həmin quruma verməyən hüquq sahibləri adından çıxış etmək istəyidir. Başqa bir problem isə həmin qurumların prosessual statusunun doğru müəyyən edilməsidir, bu o deməkdir ki, həmin qurumlar hüquqların pozulduğu təqdirdə təmsilçi kimi çıxış edərək məhkəmələrə öz adından yoxsa hüquq sahiblərinin adından müraciət etməlidir.

Bütün bunlarla əlaqədar olaraq, həm mövcud sahədə ehtimal olunan fırıldaqçılığın qarşısının alınması, həm də ictimai təşkilatların normal işinin normal vəziyyətdə təmin edilməsi üçün dövlətin koordinasiya eyni zamanda da nəzarət üzrə rolunun artırılması və gücləndirilməsi olduqca zəruridir.[4]

Azərbaycan xalqının əsas əqli mülkiyyət hüququ obyektlərindən biri də məhz folklor nümunələridir. Hansı ki, həmin nümunələr də ermənilər tərəfindən davamlı olaraq oğurlanır və qarət olunur. Belə bir vəziyyətin olmasına baxmayaraq bu problem hələ də öz həllini tapmamaqda davam edir. Hazır ki, dövrdə bunun əsas səbəbi folklor nümunələrinin hüquqi formada qorunması üçün beynəlxalq səviyyəli alətin olmaması göstərilir. Lakin, folklorun hüquqi qorunması barəsində beynəlxalq sənədin qəbul olunması üçün bir sıra təkliflər, eləcə də, ermənilər tərəfindən törədilən oğurluq faktları haqqında məlumatlar Agentlik tərəfindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatına göndərilmişdir.

Ermənilər tərəfindən Azərbaycana məxsus olan folklor nümunələrinin qeyri-qanuni qaydada istifadəsinin qarşısının alınması, eləcə də onların qorunmasını həyata keçirən dövlət orqanları eyni zamanda təşkilatların işinin koordinasiya olunması məqsədilə, həmçinin təhrif olunması və mənimsənilməsi ilə bağlı olan hallarla əlaqədar ekspert rəylərinin verilməsinə görə səlahiyyətli orqan çərçivəsində ictimai əsaslara uyğun olaraq müvafiq nazirliklərin və təşkilatların səlahiyyətli nümayəndələrindən həmçinin görkəmli elm, ədəbiyyat eləcə də incəsənət xadimlərindən ibarət olan folklorun qorunması məqsədi ilə Milli Şuranın yaradılması sferasında işlər həyata keçirilir.[14]

İnformasiya texnologiyaları hazırki dövrdə innovasiyaların önündə gedən əqli mülkiyyət obyektləri hesab olunmaqla yanaşı onlar əqli mülkiyyət qanunvericiliyi vasitəsi ilə qorunur. İnformasiya texnologiyalarının obyektlərinin əqli mülkiyyət hüquqlarının qorunmasını çətinləşdirməsi əsas problemin əsas məğzini təşkil edir. O eyni zamanda əqli mülkiyyət

hüquqularının qorunmasına mənfi şərait yaratmaqla onun pozulmasına da şərait yaratmış olur. Onun səbəbi kimi onu qeyd etmək olar ki, informasiya texnologiyalarının davamlı şəkildə inkişaf etməsi sistematik olaraq əqli mülkiyyət qanunvericiliyini getdikcə üstələyir və onunla əlaqədar olaraq, Agentlikdə son iki ildə informasiya texnologiyaları və əqli mülkiyyət arasında əlaqələrin təhlili aparılmış, eyni zamanda informasiya və kommunikasiya texnologiyalarında mövcud əqli mülkiyyət hüquqlarının qorunması ilə əlaqədar təsnifat da hazırlanmışdır. Həmçinin, distribüter şəbəkəsində də müəlliflik hüququ vasitəsi ilə qorunan eləcə də, innovasiya prosesində mühüm rola malik olan informasiya texnologiyalarının obyektləri, eyni zamanda proqram təminatından istifadə olunması ilə əlaqədar mövcud vəziyyət öyrənilmiş və onların qorunması məqsədi ilə müvafiq təkliflər irəli sürülməklə yanaşı informasiya texnologiyalarının obyektlərinin qorunması üçün tövsiyələr verilmişdir. [4]

Son dövrlərdə piratçılıq demək olar bütün dünyanı narahat edən əsas qlobal problemə çevrilmişdir. Müəlliflərin eyni zamanda hüquq sahiblərinin əmlak hüquqlarının pozulmasından savayı, həm də iqtisadiyyata olduqca böyük həcmdə ziyan vurur. Piratçılığın qarşısını almaq üçün bir sıra mübarizə tədbirləri həyata keçirilir. Bu səbəbdən ölkəmizdə də ümumi tədbirlər həyata keçirilir, o cümlədən bu sahə ilə əlaqədar mövcud olan müvafiq qanunvericilik aktları getdikcə təkmilləşdirilməklə yanaşı, yeni qanunların qəbul olunması da planlaşdırılan məsələlərdən hesab olunur. Habelə, 2010-cu il tarixindən etibarən Milli Antipirat Proqramı təzələnərək onun icrası ilə əlaqədar müvafiq tədbirlər də getdikcə daha da sürətləndirilmişdir.[4]

Hazırda mövcud olan dünya praktikasından da məlumdur ki, intellektual mülkiyyətin qorunması sahəsində 3 əsas metod tətbiq olunur:

1. müəllif hüququ,
2. patent
3. kommersiya sirri.

İntellektual mülkiyyət üzrə hüququnun qorunmasının digər üsulları da tətbiq olunur:

1. mənəvi etik normalar;
2. inzibati tədbirlər yəni,

a) konfidensiallıq rejiminin təşkil olunması,
b) təhlükəsizlik xidmətinin yaradılması,
c) heyətin öyrədilməsi,
d) təlimatlandırılma

3. fiziki mühafizə tədbirləri yəni,

a. qapıların qıfıllanması,
b. pəncərələrə barmaqlıqların qoyulması və digərləri;

4. texniki mühafizə sistemi dedikdə,

a. elektromexaniki,
b. akustik,
c. radiotexniki,
d. maqnitometrik və digərləri

5. kriptoqrafik metodlar dedikdə, yəni məlumatın məntiqi mahiyyətini gizlətmək məqsədi ilə onun şəklinin dəyişdirilməsi nəzərdə tutulur.
6. əmək müqaviləsi üzrə işdən azadetmə burada məqsəd kommersiya sirrinin açıqlanmasının və yayılmasının yolverilməzliyi ilə əlaqədar öhdəliyin götürülməsi ilə bağlıdır.[7, s. 11-17]

İnternet şəbəkəsinin yaranması ilə artıq əqli mülkiyyət hüquqlarının, eləcə də müəllif hüquqlarının müdafiəsi məsələləri də aktual məsələlərdən birinə çevrilmişdir. Qlobal şəbəkənin surətlə davam edən inkişafı ənənəvi müəlliflik hüququna əsaslanan konsepsiyanı da zərbə qarşısında qoyur. Hazırkı dövrdə internet vasitəsilə minimum xərc çəkməklə ayrı-ayrı materialları köçürmək eyni zamanda da bütün dünyaya çatdırmaq imkanı yaranıb. Bu imkanlar isə öz növbəsində intellektual mülkiyyət obyektlərinin müəlliflərinin maraqları eyni zamanda da cəmiyyətin mövcud və yaxud da yarana biləcək yaradıcılıq

fəaliyyətinə, o cümlədən də ictimai biliklərə olan marağı arasındakı tarazlığın təhlükə altında qalmasına səbəb olur. Materialların və məlumatların məhdudiyyət olmadan köçürülməsinin qarşısının alınması eləcə də, həmin materiallardan istifadə ilə əlaqədar imkanının saxlanılması internetin tənzimlənməsi üzrə ən çox müzakirə edilən məsələlərdən biridir. Əgər internetdə əqli mülkiyyət hüquqları qorunmasa bu bir sıra alim və tədqiqatçıların öz fəaliyyətlərinə olan maddi stimuldan mühüm dərəcədə məhrum olmasına səbəb olmaqla bərabər bu da öz növbəsində elmi yaradıcılıq üzrə fəallığın aşağı düşməsinə gətirib çıxara bilər.[4]

Müəlliflərin rəqəmsal hüquqlarına münasibətdə internetin mövcud qlobal xüsusiyyətlərini nəzərə alaraq, milli qanunvericiliklərin unifikasiyasının təmin olunması vacibdir. Məlumdur ki, ayrı-ayrı ölkələrin əqli mülkiyyət hüququ ilə əlaqədar qanunvericiliklərinin unifikasiya olunmasının ən effektli üsulu məhz beynəlxalq konvensiyalardır. Qlobal səciyəvi xüsusiyyətə sahib olan internetə münasibətdə unifikasiyanın reallaşdırılması xüsusi əhəmiyyətə malikdir.

Sözügedən hüquqların ənənəvi üsullarla qorunması effektli hesab edilmir. Bu səbəbdən də, internetdə həmin hüquq sahiblərinin maraqları, ilk olaraq, texniki həmçinin proqram xarakterli üsullarla qorunması məqsədəuyğundur. İnformasiya texnologiyalarının olduqca sürətli formada inkişaf edir bu isə yeni qorunma sistemlərinin yaradılmasını zəruri edir. Bundan əlavə, internet sferasında kompüter proqramlarının verilənlər bazaları üzrə intellektual mülkiyyət obyekti kimi müdafiəsi məsələsi də əhəmiyyətli dərəcədə aktual olan məsələlərdəndir. İnternetdə mövcud əqli mülkiyyət üzrə hüquqların müdafiəsi mövcud olan problemə qarşı mübarizə üzrə kompleks xarakter daşımalıdır və bu isə aşağıda qeyd edilənlərlə əlaqədardır:

1. baş verən hüquq pozuntuları yalnız internetdə deyil, eyni zamanda digər İnformasiya Kommunikasiya Texnologiyaları vasitələrində baş verir;
2. həmin vasitələrdən istifadə olunması nəticəsində aşağıda qeyd edilən hüquqi formalı pozuntuların yaranmasına şərait yaradır:

a. plagiat yəni əqli mülkiyyət obyektlərindən istifadə etməklə qanuni olmayan ticarət;
b. elektron mağazalardan istifadə etməklə icazə olmadan malların alış və satqısının aparılması;
3. fərqli əqli mülkiyyət obyektinin qanuna əməl edilməməsi obyekti formasında olması.[7, s. 41-51]

Bu səbəbdən də, hər hansı bir ayrıca ölkə daxilində baş verən hüquq pozuntuları ilə əlaqədar problemləri həll etmək mümkün deyildir. Və buna görə də internetdə probelmin effektli şəkildə həll edilməsi məqsədilə qlobal şəraiti əhatə edən əməkdaşlıq zəruri hesab olunur. Burada iştirak edən hər bir ölkə tərəfindən bu problemin həlli üçün öz töhfəsini verməsi vacibdir. Bununla yanaşı, bütün dövlətlərin ali elmi təşkilatlarının da elmi fəaliyyət sferalarında müəllif hüquqlarının, eləcə də alimlərin əqli mülkiyyətlərinin müdafiəsi sahəsində əməkdaşlıq etmələri də olduqca vacibdir. Əqli mülkiyyət hüququnun ərazi xüsusiyyəti və internetin virtual, o cümlədən qlobal təbiəti arasında fundamental olaraq ziddiyyət meydana çıxır, hansı ki, bu ziddiyyət isə intellektual mülkiyyətin müdafiəsi üzrə ənənəvi qanunvericiliyin həmçinin də internetdəki müvafiq münasibətlərə tətbiq olunmasında bir sıra çətinliklər yaradır. İnternet sferasında milli sərhədlərin olmamasına görə intellektual mülkiyyətin qorunması ilə əlaqədar yaranan bütün problemlərin həlli müvafiq olaraq milli çərçivədə hüquq sistemlərinin unifikasiyasına istiqamətlənmiş beynəlxalq səviyyəli normaların işlənməsini həmçinin də qəbulunu tələb edir.[16]

Nəticə etibarilə Azərbaycanın özünəməxsus qanunvericiliyində də internetin qlobal həmçinin də virtual xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Onu da qeyd etmək vacibdir ki, hazırki dövrə qədər bir çox universal müqavilələr qəbul olunmuşdur, lakin buna baxmayaraq qəbul edilən müqavilələrdə internetdə müəlliflik hüquqlarının eləcə də intellektual

mülkiyyətin qorunması ilə əlaqədar normalar öz əksini tapsa da belə, onlar ən ümumi məsələləri tənzimləməkdə istifadə olunurdu, yəni bu sahədə yaranan bir çox münaqişələri həll etməkdə rol oynamır. Bu baxımdan, internetdə əqli mülkiyyət hüquqlarının müdafiəsi üzrə xüsusi bir beynəlxalq konvensiyanın qəbul olunmasına olduqca böyük ehtiyac duyulur. Hazırki dövrdə beynəlxalq səviyyəli praktikada virtual mühitdə daha çox müəllif hüquqlarının qorunmasının üç əsas üsulu tətbiq olunur.

1. şəbəkədən ümumiyyətlə müəllif hüquqlarına dair anlayışın götürülməsini həmçinin də müəllifə istinadən mövcud əsərlərdən azad istifadə edilməsini nəzərdə tutur.
2. İnternet resurslarında müəllif hüquqları üzrə obyektlərdən azad formada istifadə olunması halında müəllifə müəyyən bir mükafatın ödənilməsini özündə birləşdirir.
3. Müəllif hüquqları üzrə qanunvericiliyin sərtləşdirilməsini həmçinin də istifadəçilərə məxsus olan hüquqların bir qədər məhdudlaşdırılması ilə əlaqədar nəzərdə tutulur.[8]

Hazırkı dövrdə hələ də heç bir ölkədə bütün cəmiyyət tərəfindən qəbul olunan rəqəmsal məhsulun istehsalçıları və istehlakçıları arasında balansın əldə olunması üzrə strategiya işlənib hazırlanmayıb. Onu da qeyd etmək məqsədəuyğundur ki, Azərbaycanda innovativ sahədə tərəqqinin əsası hesab olunan elmin inkişafı üzrə də ardıcıl olaraq dövlət siyasəti həyata keçirilir eyni zamanda bu sahədə geniş islahatlar aparılır.

Plagiatlıq müəllif hüquqlarının pozulmasında əsas hallardan biridir. İnternetin yaranması, eləcə də mətnlərin rəqəmsallaşması və onları nüsxələmənin də asanlaşması bu müəllif hüquqlarının pozulması ilə bağlı problemi getdikcə kəskin hal almışdır. Amma ideyaların, konsepsiyaları yaxud da metodların və informasiyanın götürülüb istifadə olunması plagiat hesab olunmur. Plagiatlıq dedikdə, əksər vaxtlarda başqalarının intellektual əməyini şəxsin öz adı ilə çap etdirməsi şəklində mənimsənilməsi nəzərdə tutulur.

Həmçinin də digərlərinin əsərlərinin müəyyən bir hissəsindən istifadə olunması vasitəsilə, yaxud da mənbə göstərilmədən istinad olunması da plagiatlığa yol verilməsi hesab olunur. Bundan əlavə, hansısa əsərə görə əsas olmadan həm müəllif adının əldə olunması da plagiatlıq kimi sayılır. Plagiatlıq sadəcə çap edilmiş əsərə münasibətdə nəzərdə tutulmur. Başqa müəlliflərin əsərlərindən istifadə olunması zamanı istinad edilməsi zəruridir. Bu halların qarşısının alınması məqsədi ilə bir sıra tədbirlərin görülməsi vacibdir. Həmin tədbirlərə mənəvi-etik, hüquqi, texnoloji aid etmək olar. Bütün bunlarla yanaşı, İKT-nın vasitəsi ilə internet sferasında baş  verən bütün plagiatlıq halları üzrə mübarizə məqsədi ilə yeni üsul və vasitələr tələb olunur. Antiplagiat üzrə proqramlarından istifadə etməklə, internetdə mövcud olan materiallar üzrə müvafiq halların aşkar olunması üçün əlverişli vasitədir. Ancaq onu da qeyd etmək lazımdır ki, plagiat yoxlanılması zamanı bir sıra ədəbiyyatlar var ki, onlara istinad etdikdə internetin yaranmasından əvvəl çap olunan ədəbiyyatdır və həmin proqramlar vasitəsi ilə yoxlanıldıqda elektron versiyası olmadığından plagiatlıq nəticələrini çıxarmaq mümkün olmur.[8]

Müəlliflik üzrə hüquqların pozulması ilə əlaqədar yaranan formalardan biri də piratçılıq hesab edilir. Piratçılıqla bağlı hüquq pozuntusundan zərər çəkən şəxslər sırasında elmi-texniki fəaliyyət üzrə də məşğul olanlar xüsusi yerə malikdir.

Həyata keçirilən tədqiqatların yekun nəticələrinə görə, Azərbaycanda piratçılıq əsasən kitab nəşri habelə audiovizual sahələrdə müşahidə edilir.[7, s. 11-17]

Müəllif Hüquqları üzrə Agentliyinin verdiyi məlumata əsasən, müvafiq dövlət orqanları ilə birlikdə piratçılığa qarşı həyata keçirilən tədbirlər nəticəsində piratçılığın ümumi səviyyəsi 2023-cü ilin hesabatın nəticəsinə əsasən 2005-ci il ilə olan hesabatla müqayisədə kitab satışı üzrə 61%-dən 20%-ə qədər, audio-video məhsul bazarında isə 90%-dən 53%-ə qədər, proqram təminatında isə 96%-dən 70%-ə qədər düşmüşdür.[4]

Hesabatın nəticələrinə əsasən bu sahədə xeyli səviyyyədə müsbət irəliləyişlər olmasına baxmayaraq hələ də ciddi problemlər də qalmaqda davam edir. Piratçılıq üzrə mübarizənin ən optimal vasitələrindən biri də müəllifin əsərlərinin elektron formada qeydiyyatıdır. Həmçinin də digər üsullardan əsas fərqi elektron qeydiyyat zamanı müəlliflərin vaxtlarına, eyni zamanda da maliyyə vəsaitlərinə qənaət olunması baxımından, bununla belə şəffaflıq baxımından da olduqca səmərəli olmaqla yanaşı, əsər elektron xidmət vasitəsilə dərhal qeydiyyatdan keçir. Buna baxmayaraq ölkəmizdə elektron qeydiyyata üstünlük verilmir və bu da piratçılıqla əlaqədar mübarizəni olduqca şətinləşdirir. Bu səbəbdən də müəlliflərin bu sahəyə cəlb olunmaları məqsədi üçün müvafiq olaraq təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsi məqsədəuyğundur.

Hələ internetin meydana gəlmədiyi dövrlərdən artıq piratçılıq mövcud idi. Amma internetin yaradılması və inkişafı piratçılığın da surətlə inkişafına şərait yaratdı. Azərbaycanda pirat məhsulların yayılmasının qarşısını almaq məqsədilə məsuliyyət tədbirləri də həyata keçirilir lakin burada internetin virtual o cümlədən də qlobal xüsusiyyətləri nəzərə alınmır və internet sferasında qeyri leqal fəaliyyətə qarşı olaraq ənənvi qaydada olan üsullarla mübarizə aparmaq mümkün deyildir. Ümumiyyətlə, internet sferasında qanunsuz fəaliyyətlə mübarizə qlobal xarakterli əməkdaşlıq tələb edir. Bəzi ölkələrdə əhalinin həyat səviyyəsi aşağıdır və bu ölkələrdə bu sahədə mübarizə aparmaqda onlar maraqlı deyillər. Buna səbəbi isə pirat məhsulların əldə olunmasının onlar üçün çox ucuz başa gəlməsi, bəzi hallarda isə pulsuz olması ilə əlaqədardır. Kasıb ölkələr tərəfindən lisenziyalı proqram təminatları qiyməti baha olduğundan əlçatan deyildir. Bu səbəbdən də kasıb ölkələr üçün bu tip proqram təminatının əldə olunmasına istehsalçı tərəfindən müəyyən güzəştlər tətbiq olunmalıdır ki, piratçılıq halları maksimum səviyyədə azaldılsın.

Bu hüquqların qorunması sahəsində elmi fəaliyyətin kommersiyalaşdırılması, patentləşdirmə məsələləri digər vacib problemdən

biri hesab olunur. İnnovasiyaların kommersiyalaşdırılması prosesi özündə yeniliyin bazara daxil olması, hər hansı məqsəd üçün istifadəyə görə nəzərdə tutulan biliyin, məlumatın ötürülməsini əks etdirir. Kommersiyalaşdırmanın vacib problemlərindən biri patent tədqiqatlarına və texnoloji auditə, o cümlədən də bazarın konyukturasının öyrənilməsi üçün lazımi səviyyədə diqqət ayrılmamasıdır. Həmin problemlərin həll edilməməsi əqli həmçinin maliyyə resurslarından qeyri-rasional olaraq istifadə olunmasına səbəb olur. Yeni biliklərin həmçinin də təcrübənin kommersiyalaşdırması üçün tətbiq olunması imkanlarının müyyən olunması ayrıca bir vəzifə olmaqla yanaşı, intellektual kapitalın isə idarə olunması peşəsidir. Onu da qeyd etmək lazımdır ki, elmin kommersiyalaşdırılmasının əsas hüquqi mexanizmi hesab olunan patent müvafiq olan səlahiyyətli dövlət orqanları tərəfindən ixtira, faydalı model həmçinin də sənaye nümunəsinə verilən mühafizə sənədidir. Patent hüquqlarının obyektlərindən biri də proqram təminatı vasitələridir. Patentdə təsvir olunan ixtiranın üçüncü şəxslər tərəfindən istifadə oluna bilməməsi məqsədi ilə patent onun sahibinə kommersiyanın qarşısını almaq üçün hüquq verir. Patent sahibi tərəfindən patenti satmaq yaxud da onun lisenziyalaşdırılması vasitəsi ilə öz hüquqlarını başqa şəxsə yönləndirə bilər. Bu səbəbdən də proqram təminatı vasitələrinin milli qanunvericiliyimizdə patent obyektləri sırasına daxil edilməsi zəruri hesab edilir. Patent barəsində qanuna əsasən orada da qeyd edilir ki, dövlət tərəfindən ixtira, faydalı model həmçinin sənaye nümunəsinin yaradılması eyni zamanda istifadəsinin həvəsləndirilməsi, eləcə də müəlliflərə, patent sahiblərinə habelə təsərrüfat subyektlərinə müəyyən güzəştlər, o cümlədən güzəştli formada kreditlər müəyyən edə bilər. Bir sıra qabaqcıl dünya təcrübəsinə görə, elmi-texniki sahədə mövcud olan innovasiyaların kommersilaşdırılması prosesi aşağıda qeyd olunan 3 yol ilə mümkündür :

1. layihənin həyata keçirilməsinin bütün mərhələləri üzrə əvəzsiz formada büdcə maliyyələşdirilməsinin axtarılması;

2. müstəqil formada bank vasitəsi ilə maliyyələşdirmənin axtarılması;
3. kommersiya sferasında maliyyələşmənin axtarılması.[9, s. 41-50]

İnnovasiya proseslərinin əsasında kommersiyalaşdırma həmçinin texnologiyaların transferi dayanır.

Pozulmuş müəllif hüquqları ilə bağlı olaraq Əqli Mülkiyyət Agentliyinə edilən müraciətlər üzrə müəyyən dövrlərə əsasən müqayisəli təhlili aşağıdakı cədvəldə qeyd olunmuşdur

| **İllər** | **Pozulmuş müəllif hüquqları ilə bağlı ümumi müraciətlərin sayı** | **Faizlə** |
|---|---|---|
| **2019** | 10 | 17.24 % |
| **2020** | 11 | 18.97 % |
| **2021** | 8 | 13.79 % |
| **2022** | 10 | 17.24 % |
| **2023** | 19 | 32.76 % |

**Mənbə:** Əqli Mülkiyyət Agentliyinin Yekun hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

**Azərbaycan Respublikasında əqli mülkiyyət institutunun inkişafı xüsusiyyətləri və gələcək perspektivləri**

**3.1 Azərbaycan Respublikasında müəlliflik hüquqlarının aktual problemləri**

Azərbaycan Respublikası Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1995-ci ilin 25 dekabr tarixindən etibarən üzvdür və bu qurum beynəlxalq səviyyədə böyük nüfuza malik olan təşkilatlardandır. Həmçinin onu da qeyd etmək məqsədəuyğundur ki, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı Birləşmiş Millətlər Təşkilatının mövcud 16 ixtisaslaşmış təşkilatından biri hesab edilir və eyni zamanda əqli mülkiyyət sferasına beynəlxalq o cümlədən də milli qanunvericiliklərin inkişafı həmçinin də bununla bağlı olan beynəlxalq aləmdə görülən bütün işlərin həm idarə edilməsini həm də koordinasiyasını həyata keçirir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatına hal hazırda 191 ölkə üzvdür.

Əqli mülkiyyətin üç növü vardır və aşağıdakılar aid edilir:

1. Müəlliflik üzrə hüququ.
2. Patent üzrə hüququ
3. Qeyri-ənənəvi əqli mülkiyyət ilə bağlı hüququ

Əqli mülkiyyətin ilk qeyd olunan müəllif hüququ, orijinal materialın müəlliflərinə və yaradıcılarına bir sıra müstəsna hüquq verir ki bunlara, materiallarını istifadə etmək, kopyalamaq və ya çoxaltmaq kimi bir sıra hüquqları aid etmək olar.[10, s. 60-85]

Qeyd etmək lazımdır ki, kitab müəlliflərinin əsərləri musiqi sənətçiləri kimi müəllif hüquqları ilə qorunur. Əlavə olaraq, bu hüquqa əsasən əsərlərin orijinal yaradıcıları lisenziya müqaviləsi vasitəsilə hamının əsərlərdən istifadə edə biləcəyini bildirir.

